ARTİ

AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL İNSTİTUTU

AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ



# MƏKTƏBƏQƏDƏR TƏHSİL PROQRAMININ (KURİKULUMUN) TƏTBİQİNƏ DAİR METODİK TÖVSİYƏLƏR

BAKI 2022

**Elmi redaktor:** **Ülkər Babayeva**,
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun direktor müavini, Təhsil üzrə doktor*

**Müəllif:** **Laləzər Cəfərova**,
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun Məktəbəqədər təhsilin inkişafı şöbəsinin müdiri, Pedaqogika üzrə fəlsəfə doktoru, dosent, əməkdar müəllim*

**Rəyçilər:** **Şəhla Əliyeva**,
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Pedaqoji psixologiya kafedrasının müdiri, Pedaqoji elmlər doktoru, professor, əməkdar müəllim*

**Ülviyyə Mikayılova**,
*ADA Universitetinin Təhsil İnstitutunun dekanı, Biologiya üzrə fəlsəfə doktoru*

**Aydan Əzimzadə**,
*Elm və Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsilin təşkili və idarə olunması şöbəsinin Məktəbəqədər təhsilin təşkili və idarə olunması sektorunun aparıcı məsləhətçisi*

**İlahə Tağıyeva**,
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun Şagird nailiyyətlərinin qiymətləndirilməsi şöbəsinin müdiri*

**Dizayner:** **Xanım Əzimli,**
*Müstəqil dizayner*

# Mündəricat


**Ön söz** 4

**1. Məktəbəqədər yaşlı (1-6 yaş) uşaqların inkişaf xüsusiyyətləri** 5

1.1. Bir-üç (1-3) yaşlı uşaqların inkişaf xüsusiyyətləri 5

1.2. Üç-altı (3-6) yaşlı uşaqların inkişaf xüsusiyyətləri 7

**2. Məktəbəqədər təhsilin məzmunu və təşkili** 11

2.1. Müxtəlif yaş qruplarında keçiriləcək məşğələlərin təxmini həftəlik cədvəli 12

Məktəbəqədər təhsil müəssisəsində yay fəsli üçün məşğələ cədvəli 13

2.2. Standartların mahiyyəti, məzmunu və inteqrativliyi 14

**3. İnkişaf və təlim strategiyalarının mahiyyəti** 16

3.1. Təlim strategiyalarından istifadə 16

3.2. Təlimin planlaşdırılması və təşkili metodikası 17

3.3. Ailələrlə əməkdaşlığın təşkili məsələləri 33

**4. Uşaq inkişafının dəyərləndirilməsi** 36

4.1. Dəyərləndirmənin metod və vasitələri 36

4.2. Dəyərləndirmənin aparılmasına verilən tələblər 38

**Uşaq inkişafının izlənilməsi üçün nümunəvi cədvəllər** 39

**İnkişafa dair yekun hesabat (Nümunə)** 51

**Tezaurus** 52

**İstifadə olunmuş ədəbiyyat siyahısı** 54

# Ön söz

Müstəqil Azərbaycanın ictimai, siyasi və mədəni həyatında  baş verən dəyişikliklər bütövlükdə cəmiyyətimizin inkişafından xəbər verir.  Azərbaycan bir çox sahələrdə dünyanın inkişaf etmiş ölkələri sırasına daxil olmaqla nüfuz qazanmışdır. Sosial-iqtisadi modernləşmənin yeni mərhələsi və Azərbaycanın dünyanın ən rəqabətədavamlı ölkələr sırasına daxil olması təhsil sisteminin gələcək inkişafını  müəyyən edir.

Məktəbəqədər təhsil uşaq şəxsiyyətinin formalaşmasına və inkişafına, daim dəyişən mühitə müvəffəqiyyətlə uyğunlaşmasına  şərait yaradır. Aparılmış tədqiqatlar sübut etmişdir ki, məhz məktəbəqədər yaş dövrü insanın intellektinin, şəxsiyyətinin formalaşması, sosial və emosional inkişafı üçün çox mühüm mərhələdir.

Məktəbəqədər yaşlı uşaqların inkişafının milli inkişaf strategiyası ilə qırılmaz şəkildə bağlılığı və dövlət siyasətinin tərkib hissəsi olması məktəbəqədər təhsilin dövlət standartının tətbiqinə və daim yenilənməsinə ehtiyac yaradır. Məktəbəqədər təhsilin dövlət standartı məktəbəqədər təhsil müəssisələrində uşaqların təlim-tərbiyəsinin psixoloji və pedaqoji əsaslarına dair tələblər sistemini ehtiva edir. Standart pedaqoji prosesin təşkili qaydalarını, onun iştirakçılarının rolunu və yerini müəyyən edir, məktəbəqədər təhsil müəssisəsi ilə ailə və icma arasında münasibətlər sistemini tənzimləyir.

Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasında məktəbəqədər təhsil üzrə bir sıra vəzifələrin həyata keçirilməsi planlaşdırılıb. Sənəddə qeyd edilir ki, ölkə üzrə məktəbəqədər təhsilin göstəriciləri yaxşılaşdırılacaq, məktəbəqədər təhsilin məzmunu yenilənəcək, pedaqoji heyətin və idarəetmə heyətinin peşəkarlığı artırılacaq, məktəbəqədər təhsilin keyfiyyətinin təminatı sistemi yaradılacaqdır. [1]

Məktəbəqədər yaş dövrü uşağın həm fiziki, həm psixofizioloji, həm də şəxsi inkişafının keyfiyyətcə dönüş dövrüdür. Təhsilin müasir strateji istiqamətləri uşaq yaradıcılığının formalaşmasına, onun öz həyat və fəaliyyətinin fəal subyekti kimi inkişafına diqqət ayırır. Bununla əlaqədar pedaqogikada reproduktiv təhsil, “hazır bilik” istehsalını təmin edən modeldən idrak fəaliyyətinin fəallaşdırılmasına yönəlmiş səmərəli təlim modelinə keçid problemi günün tələbidir. Məktəbəqədər təhsildə cəmləşən bütün bu keyfiyyətlər uşaqların pedaqoji prosesdə sosiallaşma imkanlarının genişlənməsinə mühüm şərait yaradır. Məktəbəqədər təhsilin mühüm məqsəd və vəzifələri konseptual sənəd olan məktəbəqədər təhsil proqramında (kurikulumda) təsbit olunub. Hər bir tərbiyəçi-müəllim pedaqoji fəaliyyətin qarşıya qoyulan tələblərini reallaşdırmaq üçün bu sənəd ilə yaxından tanış olmalıdır. Milli təhsil konsepsiyası əsasında fəal təlim metod və texnologiyalarından istifadə olunmaqla müasir tələblərə cavab verən yeni gənc nəsil yetişdirilir. Məktəbəqədər təhsil proqramında (kurikulumda) fəal təlim metodları ilə qurulan məşğələlər ənənəvi məşğələlərdən fərqlənir. Bu məşğələlər uşaqların sərbəst şəkildə fəaliyyət göstərməsinə imkan yaratmaqla yanaşı, onların bilik, bacarıq və istedadlarının üzə çıxarılmasına da şərait yaradır. Fəal təlim uşaqların idraki fəallığını təmin edir.

Təqdim edilən vəsaitdə tərbiyəçi-müəllimlərə təlim-tərbiyə işlərini qurmaqda kömək edəcək və istiqamət verəcək materiallar öz əksini tapmışdır.

---

1. https://president.az/az/articles/view/56725

# 1. Məktəbəqədər yaşlı (1-6 yaş) uşaqların inkişaf xüsusiyyətləri

## 1.1. Bir-üç (1-3) yaşlı uşaqların inkişaf xüsusiyyətləri

Məktəbəqədər yaş mərhələsi uşağın fiziki, psixi və sosial inkişafı baxımından əhəmiyyətli bir dövrdür. Erkən dövrdə sensor və hərəki funksiyalar, nitqə yiyələnməyə hazırlıq böyüklərlə bilavasitə qarşılıqlı təsir prosesində intensiv imkanları əldə edir. Körpəlik dövründə böyüklərlə bilavasitə - emosional ünsiyyət aparıcı fəaliyyət kimi özünü göstərir. Ana və digər böyüklərlə bu cür ünsiyyət körpənin tələbatını ödəməklə onun fiziki və psixi inkişafında mühüm rol oynayır.

***1-2 yaş.*** Uşaq 1 yaşının sonuna qədər gəzməyə, danışmağa və əşyalarla hərəkət etməyə başlayır. Bu göstəricilər onun həyatının ikinci ilindəki inkişafını müəyyən edir. Əlverişli şəraitdə iki yaşlı uşağın çəkisi hər ayda 170-190 q, boyu isə 1 sm artır. İki yaşına qədər uşağın çəkisi orta hesabla 12-12,7 kq, boyu isə 85-86 sm. çatır. İki yaşlı uşağın təxminən 20 süd dişi çıxır. Erkən yaş dövrü uşaqların intensiv fiziki inkişaf dövrüdür.

Bu dövrdə kollektivdə uşaqların birgə fəalliyyəti tədricən xeyirxah, emosional ünsiyyət münasibətləri yaradır. Həyatının ikinci ilində uşağın indiyədək düşünülməmiş tərzdə həyata keçirdiyi hərəkətlər sistemi əşyəvi fəaliyyətə çevrilir. Əşyəvi- manipulyativ fəaliyyət bu dövrün aparıcı fəaliyyət tipi olmaqla, uşaq şəxsiyyətinin formalaşmasında müstəsna əhəmiyyətə malikdir. Bu dövrdə uşağın nitqinin inkişafı onun sonrakı uşaqlıq illəri üçün xüsusi əhəmiyyət kəsb edir. Söz ehtiyatı 1 yaşda təxminən 10-20 söz, 1,5 yaşda 30-40 söz, 2 yaşda isə 300-ə qədər sözü əhatə edir.

İki yaşlı uşaqlar musiqiyə, bədii sözə qarşı çox həssas olurlar. Onlar böyük məmnuniyyətlə sadə nağılları, mahnıları dinləyir, böyüklər oxuyarkən onlara qoşulur, özü sevdiyi mahnını oxuyur və rəqs edir. Sadalanan bütün keyfiyyətlər uşaqları yeni inkişaf dövrünə hazırlayır.

***2-3 yaş.*** Bu yaşda uşaq daha müstəqil olur, hərəkətlərini əlaqələndirməyi bacarır. Uşaq öz təcrübəsi əsasında müşahidə aparmağı, əşya və hadisələri müqayisə etməyi öyrənir. Onda ətraf aləm haqqında, ətrafdakılar haqqında sadə müşahidələr yaranır. O, " Bu kimdir?", " Bu nədir?", "Niyə?", "Harada?", "Necə?" kimi suallar verir, əşya və hadisə haqqında fikir söyləyir. Onun lüğət ehtiyatı sürətlə zənginləşir, tədricən hal şəkilçilərini, feilin zamanlarını, sifətin dərəcələrini, bağlayıcıları yerində işlətməyi öyrənir.

Beləliklə, uşaq nitqin qrammatik quruluşuna yiyələnir. Uşaq başqasının nitqini izləyir, onu başa düşməyə başlayır, hətta tələffüzündəki bəzi səhvləri hiss edir. Onun rabitəli nitqi də inkişaf edir: kiçikhəcmli nağılların məzmununu başa düşür, şeirlər əzbərləyir, öyrəndikləri, eşitdikləri haqqında rabitəli danışır.

Bu yaş dövründə uşağın musiqiyə də münasibəti dəyişir. O, özünə yaxın musiqiyə, mahnılara maraqla qulaq asır, həyəcanla və düzgün qavrayır, səsləri tembrinə görə fərqləndirir. Bütün bunların əsasında onda mahnı oxumağa həvəs yaranır.

Həyatının üçüncü ilində uşaq öz bacarıqları ilə (böyüklərin sözünə qulaq asmaq, səliqəlilik, oyuncaqlarla rəftar etmək, müstəqil geyinmək, şeir söyləmək, "çətin" səsləri tələffüz etmək) fəxr edir. Uşağın 3 yaşındakı böhran dövründə də oyunlar çox əhəmiyyətlidir. Maraqlı oyunlar böhran dövrünün daha rahat keçməsinə kömək edir. Onun həyatında həm insanlar, həm də oyuncaq və canlı təbiət müxtəlif hisslər oyadır.

2-3 yaşda uşaqlar əşyaların forması, ölçüsü, rəngi ilə tanış olur, müqayisə edir, ümumi cəhətləri göstərməyə çalışırlar. Uşaqlar tədricən əşyaların əlamətlərini və keyfiyyətini sözlə ifadə edir.

Üç yaşında uşaqda özü haqqında təsəvvür yaranır. Nəticədə uşaq özünü adı ilə deyil, "mənim", "mən" əvəzlikləri ilə adlandırmağa başlayır. Bununla bağlı olaraq ilk yaş "böhranı", "üç yaşın böhranı" özünü büruzə

verir. Uşaq "mən" kəlməsini işlətməklə özünün müstəqilliyə olan meylini büruzə verir; onda mənlik şüurunun ibtidai forması müşahidə olunur. Bununla da uşaq böyüklərdən asılı olsa da müstəqil hərəkət etməyə, "mən özüm" deyə şəxsi fəallıq göstərməyə başlayır.



**_Tərbiyəçi-müəllimlərə tövsiyə_**

*1-3 yaşda uşaq artıq "mənim" və "sənin" arasındakı fərqi anlamağa başlayır. Buna görə də uşaq dostları ilə nəyi isə paylaşmaqda çətinlik çəkə bilər. Kimin nə ilə oynamasına siz qərar verməyin, uşağın bu seçimi özünün etməsinə icazə verin. Yalnız kimsə aqressivləşirsə, müdaxilə edib vəziyyəti həll edə bilərsiniz.*

*Qaçan, tullanan, dırmanan, dayanmadan hərəkətdə olan uşaqla ayaqlaşmaq çətin ola bilər. Onlara daim "bir yerdə dayan" deməyin. Əksinə mümkün qədər uşaqlara sərbəst şəkildə qaçmağa, tullanmağa, dırmanmağa icazə vermək çox vacibdir. 1-3 yaşlı uşaq öz bacarıqlarını məşq etdirməlidir ki, balans və koordinasiyaları daha yaxşı inkişaf etsin.*

*Uşaq bu dövrdə artıq stresli situasiyalarda özünü idarə etməyi öyrənir. Buna görə 3 yaşlı uşaq müstəqillik tələb etsə də, ona bir şeyi tək başına sınamaq imkanı verildikdə belə hisslərini cilovlaya bilmir. O zaman uşağa qayğı və məhəbbət göstərmək lazımdır ki, uşaq yeni mühitə uyğunlaşmaqda çətinlik çəkməsin.*

# 1.2. Üç-altı (3-6) yaşlı uşaqların inkişaf xüsusiyyətləri



***3-4 yaş.*** Həyatının dördüncü ilində uşağın fiziki inkişafı sürətlənir. 3 yaşı tamam olmuş uşaqların təkcə boyu və çəkisi yox, həm də kiçik və böyük motor bacarıqları da inkişaf edir. Bu bacarıqların mənimsənilməsi uşağın qabiliyyət və fiziki ölçülərinə görə dəyişəcəkdir.

Bu yaş dövründə uşaqların əksəriyyəti fiziki inkişafı üzrə böyük motor bacarıqlar olan bir xətt üzrə gəzmək, tarazlığı saxlamaq, hoppanmaq, sürətli qaçmaq, iki ayaq üstə tullanmaq, topu atmağı və tutmağı bacarırlar. Kiçik motor bacarıqları üzrə uşaqlar əllərini yuyub qurulaya, geyinib soyuna və kitab səhifələrini vərəqləyə bilirlər. Uşaqlar rəsm çəkərkən artıq əksəriyyəti qələmi, karandaşı və s. barmaqları ilə düzgün tutur, plastilindən hissələr qoparıb, yumşaldaraq fiqur yapmağı bacarır, qayçıdan istifadə edərək kağızı kəsə bilirlər.

3-4 yaşında uşaq artıq kim olduğunu və nə olduğunu aydın şəkildə anlamağa başlayır. Üç yaşlı körpənin daxili dünyası ziddiyyətlərlə dolu olması ilə xarakterizə olunur. Uşaq əvvəllər olmadığı qədər müstəqil olmağa can atır, lakin böyüklərin köməyi olmadan vəzifənin öhdəsindən də gələ bilmir. Uşaq bəzən böyüyün tələblərinə qarşı dözümsüzlük və mənfi reaksiya nümayiş etdirir, eyni zamanda tələblərinə riayət etməyə çalışır. Bu anda uşağın daha çox müstəqilliyini təmin etmək lazımdır, ancaq unutmaq olmaz ki, uşaqların buna kifayət qədər imkanları yoxdur. Uşağın "Mən özüməm" istəklərini dəstəkləyin, səhv və təcrübəsiz hərəkətlərini tənqid etməyin, əks təqdirdə bu onu müstəqil olmaq arzusundan sonsuza qədər çəkindirə bilər.

Uşağın bu yaş dövründə fəallığı artır, məqsədyönlü hərəkətləri uyğunlaşdırılmış xarakter alır. Uşaq oyun, rəsm, quraşdırma və s. fəaliyyətlər zamanı məqsədəuyğun hərəkət etməyə təşəbbüs göstərir. Bu dövrdə sujetli-rollu oyunlara meyil artır.

3-4 yaşında gələcək şəxsiyyətin təməlləri, fiziki, zehni, "təməli" meydana gəlir, uşaq mənəvi cəhətdən inkişaf edir. Uşaq şəxsiyyətinin uğurlu formalaşması üçün həm valideynlər, həm də məktəbəqədər müəssisələrdə tərbiyəçi-müəllimlər ona düzgün rəhbərlik etməlidirlər. Ancaq bu yaşdakı münasibətlər "böyük - uşaq" kimi deyil, dostunuz kimi bərabər səviyyədə inkişaf etməlidir.

Uşaqlar fərqli fəaliyyət növləri üzrə də müxtəlif bacarıqlar nümayiş etdirirlər.

Bu yaşda uşaqlar təsviri fəaliyyət və quraşdırma məşğələlərində əşyaların düşünülmüş təsvirini əks etdirmək üçün öyrəndikləri metod və üsulları hələ tam tətbiq etməyi bacarmırlar. Rəsm çəkmə prosesində uşağın təsəvvürlərinə görə qrafik obrazlarla təsvir olunan material kağız üzərində olduğu kimi görünür. Tədricən o, təsvir edəcəyi əşyaya uyğun oxşar cizgi və ştrixlərin sayını artırır, əşyanın nisbətən canlı təsvirini verir.
Dörd yaşında uşaqda bədii nümunələri praktik şəkildə mənimsəmə qabiliyyəti artır, şeirləri, nağılları dinləməyi xoşlayır, öz yaşıdlarının nitqini təqlid etməyə çalışır.

Bu dövrdə uşaqda musiqini dinləməyə və qavramağa emosional həssaslıq artır. Musiqi əsərlərindəki ziddiyəti (şən, sakit) fərqləndirir, tanış nəğmələri adlandırır. Ucadan səslənən musiqi alətlərini tembrinə görə fərqləndirir. Səsini tərbiyəçi-müəllimin səsinə uyğunlaşdıraraq ucadan oxuyur.

***4-5 yaş.*** Bu yaşda uşaqlarda bir çox emosional ifadələr, yeni dostluqlar, fərqli oyunlar, müxtəlif maraqlar, uzun hekayələr, çox sayda fiziki fəaliyyət özünü göstərir. Bu, təlimə maraq, daxili və xarici yaradıcı oyunlar, dialoqlu oyunlar və uşaqla birlikdə fəaliyyət göstərmək kimi qabiliyyətlərin inkişafı üçün məqsədəuyğun yaş dövrüdür.

Beşyaşlının həyatında qaydalı oyunlar tədricən daha çox yer tutmağa başlayır. Psixoloji baxımdan bunun xüsusi əhəmiyyəti var. Sujetli-rollu oyunlar beşyaşlının əsl fəaliyyət növü olmaqla onun həyatında əsaslı dəyişikliklər yaradır. Ətraf mühitdən alınmış təəssüratlar əsasında yaranan bu oyunların məzmunu tərbiyəvi işlərin təsiri ilə rəngarəng olur. Bir çox hallarda oyunların məzmununu uşaqların özləri müəyyənləşdirir və rolları bölüşdürürlər.



Mütəhərrik oyunlar uşaqda özünü aparma, qaydaları gözləmə bacarığını təkmilləşdirir.



Didaktik oyunlar isə uşaqda müşahidəetmə qabiliyyətini artırır və öyrənmə prosesini asanlaşdırır.





Həyatının beşinci ilində uşaq əşyaların məkanda yerləşdirilməsini də dərk edir, əşyaları ümumi xassəsinə, formasına, nə üçün lazım olmasına görə qruplaşdırmağı bacarır. Hadisələr əsasında sadə səbəb-nəticə əlaqələrini başa düşür, bir çox sualların cavabını araşdırır.

Beşyaşlının söz ehtiyatı daha sürətlə zənginləşir, rabitəli nitqi formalaşır. Bu yaşda uşaq kiçikhəcmli bədii əsərlərin məzmununu yadda saxlayıb nəql etməyi, oyuncaqlar, başına gələn əhvalatlar, ətraf aləm haqqında danışmağı bacarır.

Bu yaşda uşağın hissetmə qabiliyyəti daha sabit olur. Müxtəlif situasiyalarda emosiya özünü göstərir. Uşaqda həmçinin, öz arzularını böyüklərin tələblərinə uyğunlaşdırmaq, onların tələblərinə diqqət və məsuliyyətlə yanaşmaq, yaşıdlarına qayğıkeş münasibət hissi formalaşır.

***5-6 yaş.*** Həyatının altıncı ilində uşaqların fiziki inkişafında çox mühüm dəyişikliklər baş verir. Onun fəaliyyətinin formaları zənginləşir və rəngarəngliyi ilə xarakterizə olunur. Beş yaşlı uşağın əzələ və sümük sistemi yaxşı inkişaf etmiş olsa da, onun əl və ayaq əzələlərində hələ sümükləşməmiş qığırdaqlar qalır (sümükləşmə yeniyetməlik dövrünün sonuna qədər davam edir).

Yadda saxlamaq lazımdır ki, məktəbəqədər yaşlı uşaqların skeleti əsasən qığırdaq toxumalarından ibarət olur. Bununla əlaqədar uşağı həddindən artıq ayaq üstə saxlamaq, çox oturtmaq, boyuna uyğun olmayan avadanlıqlardan istifadə etməyə qoymaq olmaz.

Əgər deyilənlər nəzərə alınmazsa, uşağın qaməti düzgün inkişaf etməyəcək, bu isə öz növbəsində sümüklərin inkişafına qan dövranı və nəfəs almağa mənfi təsir göstərəcəkdir. Baş beyin yarımkürələrinin qabığında ləngimələrin zəifliyi və oyanmanın çox yayılması səbəbindən uşaqların diqqəti davamsız, ətraf aləmin qıcıqlandırıcılarına reaksiyası emosional xarakter daşıyır. Əqli fəaliyyət zamanı onlar çox yorulurlar.

Bu yaşda uşaqlarda ali sinir fəaliyyətinin II siqnal sistemi əsasında asanlıqla şərti refleks yaratmaq olur, uşağın ürək-damar sistemində anatomik və funksional dəyişikliklər baş verir, ürəyin çəkisi və iş qabiliyyəti xeyli dərəcədə artır.

Bu yaş dövründə uşağın əzələləri kifayət qədər inkişaf etmədiyindən və zəif olduğundan o, tez-tez düzgün olmayan vəziyyətlər alır; başını aşağı sallayır, çiyinlərini yaxınlaşdırır, belini əyir, sinəsini çökdürür və s.

Məktəbəqədər yaş dövrü şərti reflekslərin əmələ gəlməsi, sadə reflekslərdən mürəkkəb reflekslərə doğru inkişaf dövrü kimi xarakterizə olunur. Baş beyin yarımkürələrinin qabığında proseslərin möhkəmliyi, daxili ləngimənin qüvvəsi, getdikcə davamlı şərti reflekslər kimi qalır. Məktəbəqədər dövrün axırlarında ləngimə prosesinin qüvvəsi xeyli artır, müvazinətlilik inkişaf edir.

Həyatının altıncı ilində uşağın təfəkkürünün ən yüksək əyani-obrazlı təfəkkür forması inkişaf edir. Bunun əsasında da ümumiləşdirilmiş biliklərin formalaşdırılması təmin edilir. Uşaq əşyanın oxşar və fərqli xüsusiyyətlərini öyrənir, onu qorumağı, mühafizə etməyi bacarır.

Bu yaşda uşağın nitqi hərtərəfli inkişaf edir. Belə ki, o sözləri düzgün tələffüz edir. Uşağın rabitəli nitqi formalaşır, o sadə süjetli və kiçikhəcmli hekayələr qura bilir.

5-6 yaş arası uşaq kifayət qədər sosialdır. Uşağın sosial inkişafı onun yaşına və inkişafına uyğun olaraq məsuliyyətləri yerinə yetirməsi, digər şəxslərlə münasibət qura bilməsi, ailə və cəmiyyətin qaydalarına uyğun davranmasıdır. Uşağın ana-atası və ətrafında olan insanlarla yaşaması onun sosial həyatının başlanğıcıdır. Doğulduğu andan etibarən uşağın sosial inkişafı başlayır və çevrəsindəki insanlarla qurduğu münasibətlə davam edir. Uşaq nitq, fiziki, zehni, hissi baxımdan inkişaf etdikcə çevrəsi də genişlənir. Beləliklə, ailə içində başlayan sosial münasibətlər, dostluq münasibətləri məktəbəqədər müəssisə və məktəb həyatı ilə davam edir.

## *Tərbiyəçi-müəllimlərə tövsiyə*

*3-4 yaşlı uşaqlar eyni zamanda ekspansiv (açıq sözlü), zərif və kobud ola bilirlər. Onlar ətraf aləmi anlamağa çalışırlar. Bu yaş dövründə onlar üçün öz fantaziyalarını reallıqdan ayırmaq çox çətindir. Başa düşməyə başlayırlar ki, onların hərəkətləri müəyyən nəticələrə gətirir və özləri üçün davranış məhdudiyyətləri yaratmağı öyrənirlər. Buna diqqətlə yanaşmaq tövsiyə edilir.*

*4-5 yaşda uşaq özünü qüdrətli hesab edir və istənilən yeni problemin həllinə çalışır. Kiçiklərdən fərqli olaraq, bu yaş qrupundan olan uşaqlar bütün iştirakçıların qarşılıqlı anlayışını tələb edən mürəkkəb qrup oyunları oynayırlar. Onlar bir-birinin fikrinə şərik çıxır, öz hissləri və digər insanların hissləri barədə danışa bilirlər.*

*Bu mərhələnin təsəvvür, yaddaş, diqqət, təxəyyül və qavrayışın inkişaf etdiyi mühüm mərhələ olduğunu nəzərə almaq lazımdır. Yanlış hərəkətlər ilə bu təbii proses pozula bilər.*

*5-6 yaşlı uşaq bu dövrdə həyatı boyu ona lazım olacaq mühüm keyfiyyətlərə yiyələnir. Belə ki, böyüklərlə qarşılıqlı anlaşmaya əsaslanan şəxsi ünsiyyət qurur, onların danışdıqlarını anlayır, öz fikrini onlara başa salır. Uşaq öz şəxsi keyfiyyətləri haqqında böyüklərin fikrini bilmək istəyir. Bu cəhətlərə diqqət yetirilməsi vacibdir.*

*Unutmaq olmaz ki, məktəbəqədər yaşlı uşaqların skeleti əsasən qığırdaq toxumalarından ibarət olduğu üçün uşağı həddindən artıq ayaq üstə saxlamaq, çox oturtmaq, boyuna uyğun olmayan avadanlıqlardan istifadə etməyə imkan vermək olmaz. Əgər əməl olunmazsa, uşağın qaməti düzgün inkişaf etməyəcək, bu isə öz növbəsində sümüklərin inkişafına, qan dövranına və tənəffüsə mənfi təsir göstərəcəkdir.*



# 2. Məktəbəqədər təhsilin məzmunu və təşkili

Məktəbəqədər təhsil müəssisələrində uşaqların hərtərəfli inkişafının təmin edilməsi, məktəbə hazırlanmaları üçün ilkin bacarıqlara yiyələnmələri, onların pulsuz təhsil almaları hüquqlarının reallaşdırılması, məktəbəqədər təhsil müəssisəsi və məktəb arasında varisliyin, ardıcıllığın həyata keçirilməsi işi tərbiyəçi-müəllimlər tərəfindən həyata keçirilir. Tərbiyəçi-müəllim pedaqoji prosesdə həlledici qüvvə kimi çıxış edir. Şəxsiyyətin ahəngdar inkişafı vəzifəsi, ilk növbədə, tərbiyəçi-müəllimin üzərinə düşür. Müasir təhsil yeni inkişaf və modernləşdirilmə mərhələsindədir. Buna cəmiyyətdə baş verən həm sosial, həm də iqtisadi dəyişikliklər səbəb olur. Respublikamızda aparılan müasir dəyişikliklər bu sahədə yeni perspektivlər açır.

Təhsilin yeni məzmun kəsb etməsi, pedaqoji kadrların hazırlanmasına verilən yeni tələblər onların peşəkarlığının rolunu artırır, keyfiyyət dəyişiklikləri tələb edir. İlk növbədə təhsil müəssisəsi çərçivəsində pedaqoji prosesin təşkilinə, təlimin təşkilat formasına, təhsilalanlarda öyrənməyi öyrənmək bacarığının formalaşmasına, ünsiyyətin qurulmasına yanaşmada dəyişikliyin aparılması irəli sürülür. Bütün bu bacarıqlar tərbiyəçi-müəllimlə birgə fəaliyyətlərdə qazanılır.

Məktəbəqədər təhsilin məzmununa və təşkilinə dair ümumi tələblər aşağıdakılardır:

- məzmunun nəticəyönümlülük, şəxsiyyətyönümlülük, inteqrativlik prinsipləri əsasında müəyyənləşdirilməsi;
- uşaqların meyil və maraqları, potensial imkanları, təhlükəsizliyi, yaşı nəzərə alınmaqla, öyrədici mühit yaradılması, onlarda əqli, fiziki, sosial-emosional və nitq qabiliyyətlərinin inkişaf etdirilməsi;
- uşaqların fərdi, psixofizioloji və yaş xüsusiyyətlərinin nəzərə alınması;
- uşaqların sağlamlığının qorunması və möhkəmləndirilməsi, onların sağlam həyat tərzi keçirməsinin təmin edilməsi;
- uşaqların şəxsiyyətinin harmonik inkişafının, onların maraqlarının, milli və ümumbəşəri dəyərlər əsasında qabiliyyətlərinin inkişafının təmin edilməsi;
- uşaqlarda, onlara ictimai-sosial və təbii mühitdə yaşamağa və məhsuldar fəaliyyət göstərməyə imkan verən sosial-mənəvi keyfiyyətlərin formalaşdırılması;
- sağlamlıq imkanları məhdud olan uşaqlarla müvafiq korreksiya işinin təşkil edilməsi;
- kommunikativ, əqli, oyun və digər fəaliyyətlərin stimullaşdırılması.

Məktəbəqədər təhsil müəssisələrində tədris ili sentyabr ayının 15-də başlanır. Bu təhsil müəssisələri ilboyu fəaliyyət göstərir, ildə iki dəfə — yanvar ayının əvvəlində və mart ayının axırında 1 həftəlik tətil olur. Bu dövrdə məşğələlər keçirilmir, əsasən əyləncəli tədbirlər, ekskursiyalar təşkil edilir.

Məktəbəqədər müəssisələrdə təlimin təşkilat forması məşğələdir. Məşğələlər il boyu təşkil edilir. Lakin yay aylarında məşğələlərin sayı azalır və məzmun il ərzində öyrəndiklərinin təkrarını əhatə edir.

# 2.1. Müxtəlif yaş qruplarında keçiriləcək məşğələlərin təxmini həftəlik cədvəli

| Həftənin günləri | I Körpələr qrupu (1-2 yaşlı uşaqlar üçün) | II Körpələr qrupu (2-3 yaşlı uşaqlar üçün) | Orta qrup (3-4 yaşlı uşaqlar üçün) | Böyük qrup (4-5 yaşlı uşaqlar üçün) | Məktəbəhazırlıq qrupu (5-6 yaşlı uşaqlar üçün) |
|---|---|---|---|---|---|
| | **Məşğələlərin adı** | | | | |
| **Bazar ertəsi** | 1. Ətraf mühitlə tanışlıq və nitq inkişafı<br>2. Hərəkətlərin inkişafı | 1. Ətraf mühitlə tanışlıq və nitq inkişafı<br>2. Musiqi | 1. Ətraf aləmlə tanışlıq və nitq inkişafı<br>2. Musiqi | 1. Ətraf aləmlə tanışlıq və nitq inkişafı<br>2. Musiqi | 1. Ətraf aləmlə tanışlıq<br>2. Fiziki mədəniyyət<br>3. Təsviri fəaliyyət |
| **Çərşənbə axşamı** | 1. Sensor tərbiyə | 1. Sensor tərbiyə<br>2. Hərəkətlərin inkişafı | 1. Məntiqi və riyazi təfəkkürün inkişafı<br>2. Fiziki mədəniyyət | 1. Məntiqi və riyazi təfəkkürün inkişafı<br>2. Fiziki mədəniyyət | 1. Məntiqi və riyazi təfəkkürün inkişafı<br>2. Musiqi<br>3. Savad təliminə hazırlıq və nitq inkişafı |
| **Çərşənbə** | 1. Hərəkətlərin inkişafı | 1. Təsviri fəaliyyət | 1. Bədii təfəkkürün inkişafı<br>2. Təsviri fəaliyyət | 1. Bədii təfəkkürün inkişafı<br>2. Təsviri fəaliyyət (rəsm, kəsib-yapışdırma) | 1. Bədii təfəkkürün inkişafı<br>2. Təsviri fəaliyyət |
| **Cümə axşamı** | 1. Ətraf mühitlə tanışlıq və nitq inkişafı | 1. Ətraf mühitlə tanışlıq və nitq inkişafı<br>2. Hərəkətlərin inkişafı | 1. Ətraf aləmlə tanışlıq və nitq inkişafı<br>2. Fiziki mədəniyyət | 1. Ətraf aləmlə tanışlıq və nitq inkişafı<br>2.Fiziki mədəniyyət | 1. Məntiqi və riyazi təfəkkürün inkişafı<br>2. Musiqi |
| **Cümə** | 1. Musiqi | 1. Musiqi | 1. Təsviri fəaliyyət<br>2. Musiqi | 1. Təsviri fəaliyyət (yapma, quraşdırma)<br>2. Musiqi | 1. Savad təliminə hazırlıq və nitq inkişafı<br>2. Fiziki mədəniyyət |

# Məktəbəqədər təhsil müəssisəsində yay fəsli üçün məşğələ cədvəli

| Həftənin günləri | I Körpələr qrupu (1-2 yaşlı uşaqlar üçün) | II Körpələr qrupu (2-3 yaşlı uşaqlar üçün) | Orta qrup (3-4 yaşlı uşaqlar üçün) | Böyük qrup (4-5 yaşlı uşaqlar üçün) | Məktəbəhazırlıq qrupu (5-6 yaşlı uşaqlar üçün) |
|---|---|---|---|---|---|
| | **Məşğələlərin adı** | | | | |
| **Bazar ertəsi** | 1. Sensor tərbiyə (didaktik materiallarla, oyuncaqlarla, oyuncaq tikinti materialları ilə) | 1. Ətraf mühitlə tanışlıq və nitq inkişafı | 1. Ətraf aləmlə tanışlıq və nitq inkişafı | 1. Ətraf aləmlə tanışlıq və nitq inkişafı | 1. Məntiqi və riyazi təfəkkürün inkişafı |
| **Çərşənbə axşamı** | 1. Musiqi | 1. Musiqi | 1. Fiziki mədəniyyət | 1. Musiqi | 1. Fiziki mədəniyyət |
| **Çərşənbə** | 1. Musiqi | 1. Hərəkətlərin inkişafı | 1. Musiqi | 1. Fiziki mədəniyyət | 1. Musiqi |
| **Cümə axşamı** | 1. Ətraf mühitlə tanışlıq və nitq inkişafı | 1. Sensor tərbiyə (didaktik materiallarla, oyuncaqlarla, oyuncaq tikinti materialları ilə) | 1. Məntiqi və riyazi təfəkkürün inkişafı | 1. Təsviri fəaliyyət (rəsm, yapma, kəsib-yapışdırma, quraşdırma) | 1. Ətraf aləmlə tanışlıq |
| **Cümə** | 1. Hərəkətlərin inkişafı | 1. Təsviri fəaliyyət | 1. Təsviri fəaliyyət (rəsm, yapma, kəsib-yapışdırma, quraşdırma) | 1. Məntiqi və riyazi təfəkkürün inkişafı | 1. Təsviri fəaliyyət (rəsm, yapma, kəsib- yapışdırma, quraşdırma) |

*Tərbiyəçi-müəllimlərə tövsiyə*

*Məktəbəqədər yaşlı uşaqların təlimi təkrar olunan bir prosesdir. Hər bir məşğələdə siz sadə təlim məqsədlərini müəyyənləşdirməli və işinizi həmin məqsədlərin reallaşmasına istiqamətləndirməlisiniz. Keçirilmiş məşğələlərdə öyrədilmiş məzmunun təkrarı əsasən axşam fəaliyyəti zamanı təşkil edilə bilər.*

*Uşaqlara hərflər və ədədlərlə bağlı kömək göstərilmədən tərbiyəçi-müəllimlər 3-4 yaşlardan başlayaraq uşaqlarda kiçik motor bacarıqlarının inkişaf etdirilməsini istiqamətləndirməlidir. Bu, uşaqlarda əllər, ayaqlar, dodaqlar, dil və gözlərin kiçik əzələlərin hər hansı fəaliyyəti ilə həyata keçirilir. Uşaqlarda motor bacarıqlarının formalaşması onlarda balansın yaxşı saxlanılmasına və onların hərəkətlərinin əlaqələndirilməsinə kömək edəcəkdir.*

*Məşğələ otaqlarında çoxlu sayda stolüstü oyuncaqların və pazlların olmasını təmin edin.*

*Uşaqların fiziki fəaliyyətlə məşğul olmaları üçün onları mütamadi olaraq, gəzinti saatlarında həyətə çıxarın. Uşaqların açıq havada fəallığını təmin edin.*

# 2.2. Standartların mahiyyəti, məzmunu və inteqrativliyi

Məktəbəqədər təhsil kurikulumunun məzmunu standartlar şəklində ifadə olunmuşdur. Məzmun standartları uşaqların bilik və bacarıq səviyyələrinə qoyulmuş dövlət tələbi olmaqla, gözlənilən ümumi təlim nəticələrini reallaşdırır. Əsas standartlar bütün yaş qrupları üçün eyni, alt standartlar isə hər yaş qrupuna müvafiq olaraq dəyişir. Alt standarlar əsas standartlarda ifadə olunmuş fikrin müəyyən hissəsidir. Alt standartlar hər yaş qrupuna uyğun olaraq inkişaf dinamikası üzrə tədricən mürəkkəbləşir.

Hər bir standart bilik və fəaliyyətdən ibarətdir. Burada məzmun uşaqların nə öyrənəcəyini, yəni bilik hissəsini, fəaliyyət isə uşağın öyrəndiyini necə nümayiş etdirəcəyini bildirir.

***Nümunə***

Məsələn, 3-4 yaşlılar ( orta qrupda)qrupunda bir standarta nəzər salaq:

***Standart: 2.3.1. Əşyalarla 3 dairəsində riyazi əməliyyatlar yerinə yetirir.***

Burada üç dairəsində riyazi əməliyyatlar bilik, yerinə yetirir – isə fəaliyyət hissəsidir. Bütün fəaliyyətlərdə uşağın təfəkkür fəallığının inkişaf etdirilməsi, psixomotor bacarıqlarının formalaşdırılması zəruri tələb kimi diqqət mərkəzində saxlanılmışdır. Məzmun standartları bilik hissəsinin təcrübədə tədqiq olunaraq bacarığa çevrilməsini təmin edir.

Məktəbəqədər təhsil proqramı (kurikulumu) inteqrativ xarakter daşıyır. Bu, ilk növbədə, uşağın ibtidai təhsilə hazırlanması, şəxsiyyətinin formalaşması, onda sadə həyati bacarıqların inkişafı ilə bağlıdır. Verilən standartlar yaş qrupları üzrə əlaqəli və davamlı şəkildə biri digərini tamamlamaq və möhkəmləndirməklə şaquli və üfiqi ardıcıllıqla verilir. Şaquli inteqrasiyada yaş qrupları və inkişaf sahələri arasındakı əlaqə, ardıcıllıq və sistemlilik, üfüqi inteqrasiyada isə hər yaş dövrü üzrə müxtəlif inkişaf sahələri üzrə əsas və alt standartlar arasındakı əlaqəlilik və ardıcıllıq təmin olunur.

Yaş qrupu artdıqca, verilən biliyin məzmunu mürəkkəbləşir, yəni bütün alt standartlar yaş dövrləri artdıqca sadədən mürəkkəbə doğru dəyişir. Alt standartların mürəkkəbləşməsi uşaqların inkişaf dinamikasını izləməyə imkan verir.

Eyni zamanda alt standartların yaş dövrlərinə uyğun olaraq dəyişməsi bütün inkişaf sahələri və məşğələlər arasında inteqrasiyanın yaranması və möhkəmlənməsinə səbəb olur.

Məktəbəqədər təhsil proqramı (kurikulumu) bütün təlim nəticələrini əks etdirməklə son nailiyyətləri təsəvvür etməyə imkan verir. Öyrənmə prosesində əldə edilən nailiyyətlərin hansı səviyyədə olmasını müəyyənləşdirmək üçün müvafiq şərait yaranır.

***Bütün bunlarla yanaşı, məktəbəqədər təhsil proqramı (kurikulumu):***

*-müxtəlif bacarıqların öyrənilməsini nəzərdə tutan balanslaşdırılmış yanaşmanı əhatə edir;*
*-fəal təlim üsullarından istifadə etməklə məzmun standartlarına uyğunlaşdırılmış məqsədə çatmağa imkan yaradır;*
*-uşaqların inkişafının və təlim nəticələrinin qiymətləndirilməsini, il ərzində düzəlişlərin edilməsini nəzərdə tutur;*
*-uşaqların təlim prosesinə cəlb edilməsini və həvəsləndirilməsini təmin edir.*

Hər bir yaş qrupunda keçirilən məşğələlərdə reallaşdırılan alt standarta əsasən təlim məqsədi müəyyənləşdirilir. Təlim məqsədinin müəyyənləşdirilməsinin izahı üçün məktəbəhazırlıq qrupunda savad təliminə hazırlıq və nitq inkişafı üzrə bir nümunəyə nəzərə salaq.

2.2.5. Verilən səs üzrə sözləri seçir, səslərdən hecalar, hecalardan sözlər, sözlərdən cümlələr, cümlələrdən şifahi mətnlər qurur.

**Mövzu: T – səsi və hərfi.**
"Traktor" mövzusunda müsahibə.
***Məqsəd:***
- Traktor haqqında danışır.
- T səsini və hərfini fərqləndirir.
- T səsi ilə olan hecalar və sözlər söyləyir.
- Sözlərdən cümlələr qurur.

Tərbiyəçi-müəllim təlim məqsədini elə müəyyən etməlidir ki, məşğələ prosesində onun reallaşmasını təmin etmək mümkün olsun.

***Tərbiyəçi-müəllimlər məzmun standartlarının reallaşdırılması zamanı aşağıda qeyd olunan məsələlərə diqqət yetirməlidirlər:***

*- hər bir yaş mərhələsində mənimsənilməsi əvvəlcədən nəzərdə tutulmuş ümumi təlim nəticələrinə nail olunması, məzmun standartlarının reallaşdırılması üçün mövzuların düzgün müəyyənləşdirilməsi;*
*- hər yaş dövrünün sonunda uşaqların bilik və bacarıq səviyyələrinin məzmun standartlarında qoyulan tələblərə uyğunlaşması;*
*- məzmun standartlarındakı biliklərin uşaqlar tərəfindən mənimsənilməsi və təcrübəyə tətbiq olunaraq həmin biliklərin bacarıqlara çevrilməsi;*
*- təlim məqsədlərinin alt standartlara uyğun olaraq düzgün müəyyənləşdirilməsi;*
*- hər bir məzmun standartından bir neçə mövzunun çıxarılması.*

***Tərbiyəçi-müəllimlərə tövsiyə***

*Nəzərə alın ki:*

*Öyrənmə prosesində uşaqlar elmin əsaslarını öyrənmirlər, əksinə ətraf aləm haqqında sistemləşdirilmiş təsəvvürlər alır və xüsusi bacarıqlara yiyələnirlər (tərbiyəçi-müəllimə qulaq asmaq, suallara cavab vermək, onlara müraciət etmək, göstərişlərə uyğun hərəkət etmək, böyük məktəbəqədər yaşlarda müəyyən idraki- təlim vəzifəsini qoymaq və ya qəbul etmək, onun nailiyyətini planlaşdırmaq, öz işinizin nəticələrini qiymətləndirmək və digərləri ilə müqayisə etmək);*

*Məşğələnin keçirilməsi zamanı motivasıyanın yaradılması, tərbiyəçi-müəllimin xoş rəftarı, nitqinin intonasiyası, ifadəliliyi prosesin yüksək emosionallığı, müsbət ab-hava kimi amillər xüsusi əhəmiyyət kəsb edir;*

*Məktəbəqədər yaşlı uşaqlar yaşla bağlı psixoloji xüsusiyyətlərinə görə tapşırığı yerinə yetirməyə tələsdiklərindən (onlar mümkün qədər tez fəaliyyətə başlamaq üçün səbirsizlənirlər) və artıq tərbiyəçi-müəllimin dediklərinə qulaq asmadıqları üçün izahatı çox diqqətlə, aydın və qısa şəkildə yerinə yetirin, yalnız ən əsasları bildirin. Təlimatların bəzi hissəsi, əlavələr məşğələnin gedişində edilə bilər;*

*Qeyri-iradi diqqət, onun qeyri-sabitliyi, uşaqların yüksək emosional həssaslığı, yaddaşın həcminin azlığı, tez yorulma uşaqların təliminin üsul və vasitələrinin xüsusiyyətlərini, məşğələlərin müddətini müəyyənləşdirir.*

# 3. İnkişaf və təlim strategiyalarının mahiyyəti

İnkişaf və təlim strategiyaları təlim prosesinin təşkilinə verilən tələbləri, istifadə edilən forma, üsul və vasitələri əhatə edir. Məktəbəqədər təhsil proqramında (kurikulumunda) təlim strategiyaları anlayışının işlənməsi və pedaqoji prosesin təşkilində ondan daha səmərəli şəkildə istifadə olunması, ilk növbədə, əsas pedaqoji anlayışlardan biri kimi təhsilin müasir tələblər baxımından izahını zəruri edir.

Təlim strategiyasının uşağın yaş, fərdi, həmçinin inkişaf xüsusiyyətlərinə uyğunluğu çox vacibdir. Məktəbəqədər təhsil müəssisələrində çalışan pedaqoji işçilər uşaqların həm yaş, həm də fərdi inkişaf xüsusiyyətlərini bilməli, təlim strategiyası seçimində və fəaliyyət növlərinin planlaşdırılmasında nəzərə almalıdır.

Uşaqların inkişafı haqqında müşahidənin və uşağın ailəsindən alınan məlumatların köməyi ilə fəaliyyətin təşkili zamanı aşağıdakı tələblər nəzərə alınmalıdır:

*-təlim strategiyasının uşaqların fərdi təlim üslubuna (vizual, eşitmə və kinestetik) uyğunlaşdırılması;*
*-təlimin differensiallaşdırılması (bu zaman tərbiyəçi-müəllimlər uşaqlara onların hazırlıq səviyyələrinə uyğun tapşırıqlar verir);*
*-müxtəlif iş formaları (kollektiv, kiçik qruplarda, həmçinin fərdi), tapşırıq imkanlarının və təlim vəziyyətlərinin təklif olunması ilə uşaqların müxtəlif tələbatlarının nəzərə alınması;*
*-uşaqların fərdi tələbatlarına uyğun olan təlim mühitinin və təlim vəziyyətinin yaradılması;*
*-uşaqların təlim məqsədlərinə çatması, onlarda müvafiq bacarıq səviyyələrinin formalaşması üçün müxtəlif təlim materialları ilə təmin olunması.*

## 3.1. Təlim strategiyalarından istifadə

Təlim strategiyaları "mövqe", "yol" mənasını ifadə edir. Tərbiyəçi-müəllimin təlim zamanı mövzuya uyğun olaraq müxtəlif mövqe və yollardan istifadə etməsi uşaqların yeni öyrədilən bilikləri daha asanlıqla mənimsəmələrini təmin edir və təlimin səmərəliliyini yüksəldir.

Təlim prosesində öyrədənin (tərbiyəçi-müəllimin) hər hansı mövqedən çıxış edərək öyrənənə (uşağa) yeni materialı daha yaxşı mənimsətməsi nəzərdə tutulur. Bəzən təlim zamanı uşaqların maraq və ehtiyaclarının, bacarıqlarının nəzərə alınmaması onların ümumi inkişafına mənfi təsir göstərir. Bu da uşaqların müstəqil fikir yürütmək və fəaliyyət göstərmək, öz istəklərinə uyğun bacarıqlarını nümayiş etdirmək və həyatda öz yerlərini tutmaqda çətinlik çəkmələrinə səbəb olur. Buna görə də tərbiyəçi-müəllimlər təlimin bütün mərhələlərini uşaqların ümumi inkişafı, maraq və ehtiyacları çərçivəsində qurmaq üçün strategiyaları düzgün müəyyənləşdirməlidirlər.

Müxtəlif təlim strategiyalarından istifadə uşaqların öyrənmə prosesini müsbət surətdə gücləndirə bilər. Aydındır ki, təlim strategiyaları hər hansı bir məşğələnin təlim məqsədinə uyğun müəyyən edilməlidir.

# 3.2. Təlimin planlaşdırılması və təşkili metodikası

Məktəbəqədər təhsil müəssisələrində təlimin səmərəli təşkili işin düzgün planlaşdırılmasından başlayır. Düzgün planlaşdırma üçün yerinə yetiriləcək fəaliyyətin əvvəlcədən layihələndirilməsi xüsusi didaktik əhəmiyyət kəsb edir. Məktəbəqədər təhsil müəssisələrində planlaşdırmanın, əsasən, aşağıdakı iki növündən istifadə edilməsi zəruri hesab edilir:

- illik (perspektiv) planlaşdırma;
- həftəlik (cari) planlaşdırma.

**İllik (perspektiv) planlaşdırma** standartların reallaşması məqsədilə inkişaf sahələrinə əsasən hər yaş qrupu üçün işin planlaşdırılması üzrə aparılır. Məktəbəqədər təhsil proqramının (kurikulumun) əsas istiqamətlərinə müvafiq olaraq müəyyənləşdirilmiş inkişaf sahələrinin planlaşdırılmasında inteqrativlik prinsipi ciddi şəkildə gözlənilir.

Uğurlu və nəticəyönümlü təlim prosesinin təşkili əvvəlcədən mükəmməl hazırlanmış planlaşdırmadan asılıdır. Bu növ planlaşdırma özündə tərbiyəçi-müəllimin hər hansı inkişaf sahəsi üzrə nəzərdə tutulmuş yaş qrupu üzrə illik fəaliyyətini əhatə edir. Orada konkret yaş qrupu üzrə məzmun standartları, məşğələ, mövzular, inteqrasiya, resurs və tarix kimi məsələlər əhatə olunur.

İllik planlaşdırma həm müvafiq yaş qrupunun, həm də ayrı-ayrı uşaqların inkişaf səviyyəsini nəzərə alaraq müəyyən zamanda təlim və tərbiyənin vəzifələrini konkretləşdirməlidir.

Hər bir məşğələdə mövzuların ardıcıllığı planlaşdırılarkən aşağıdakılar nəzərə alınmalıdır:

- **inkişaf sahəsi daxilində inteqrasiya;** (məsələn, İdrakın inkişafında nitq inkişafı üzrə mövzunun keçirilməsi zamanı onun həmin inkişaf sahəsinin daxilində olan ətraf aləmlə tanışlıq, məntiqi və riyazi təfəkkürün inkişafı ilə əlaqələndirilməsi)

- **inkişaf sahələri arası inteqrasiya;** (Məsələn, Estetik-yaradıcı inkişaf sahəsi üzrə təsviri fəaliyyət məşğələsinin Fiziki inkişaf, sağlamlıq və təhlükəsizlik, İdrakın inkişafı ilə əlaqələndirilməsi)

- **ardıcıllığın qurulması prinsipi**

**1) məntiqi ardıcıllıq** (məzmun məntiqi cəhətdən biri-birini tamamlamalıdır. Burada mövzular arasında əlaqə yaradılır. Mövzular təsadüfi seçilmir, nəzərdə tutulmuş inkişaf istiqamətinə uyğun aparılır. Biliklər və bacarıqlar ümumidən xüsusiyə doğru inkişaf etdirilir.)

**2) psixoloji ardıcıllıq** (sadədən mürəkkəbə doğru, yaxından uzağa prinsipi nəzərə alınmalıdır. Burada uşaqların bildikləri və bacardıqları üzərində yeni bilik və bacarıqlar formalaşdırılır. Başqa sözlə, uşaqlar inkişaf səviyyəsinə uyğun, uşaqların potensialları baxımından veriləcək yeni bilik və bacarığa hazır olurlar.)

**3) xronoloji ardıcıllıq** (tarixə əsasən xronoloji ardıcıllıq gözlənilməlidir. Keçirilən mövzuların zamana görə aktuallığı, uyğunluğu nəzərə alınmalıdır.)

Planlaşdırma aparmaq üçün lazım olan bacarıqlardan mühümü inteqrasiya imkanlarının müəyyən edilməsidir. Hər bir inkişaf sahəsinin digər inkişaf sahələri ilə inteqrasiyası zəruridir. Planlaşdırma aparılarkən mövzunun digər inkişaf sahəsi üzrə bu və ya digər mövzu ilə inteqrasiya imkanları müəyyən olunmalıdır.

Perspektiv planlaşdırmada zəruri cəhətlərdən biri də resursların seçilməsidir. Uşaqlara tanış olmayan hadisələri,

əşyaları yalnız sözlərlə aydınlaşdırmaq çətindir. Müxtəlif əyani vəsaitlər məktəbəqədər yaş dövründə xüsusilə mühümdür.

Mühüm bacarıqlardan biri də mövzulara görə məqsədyönlü tarixi müəyyənləşdirməkdir.

***Planlaşdırma aparılarkən aşağıdakı tövsiyələr nəzərə alınmalıdır:***

*tərbiyəçi-müəllim*

- standartlar qrupuna əlavə standartlar daxil edə;
- mövzuları dəyişə və ya artıra;
- inteqrasiya üçün əlavə imkanlar müəyyən edə;
- əlavə resurslar seçə bilər.

**Perspektiv (illik) planlaşdırma aşağıdakı nümunəvi sxem üzrə aparılır.**

| Standartlar | Məşğələ | Mövzular | İnteqrasiya | Resurslar | Tarix |
|---|---|---|---|---|---|
| | | | | | |

Aşağıda idrakın inkişafı üzrə orta qrupda (3-4 yaşlı uşaqlar üçün) təxmini perspektiv planlaşdırma nümunəsi təqdim olunur.

| Standart | Məşğələ | Mövzu | İnteqrasiya | Resurslar | Tarix |
|---|---|---|---|---|---|
| 2.2.1.<br>2.2.4. | Bədii təfəkkürün inkişafı | “Ana dilim” Şahin Xəlilov) | Es.3.1.8,3.1.9<br>S.e.4.1.2.,4.2.2.<br>D İd. 2.1.1. | Müntəxəbat, şəkillər, kompüter, proyektor | Sentyabr III həftə |
| 2.2.1.<br>2.2.4. | | “Sınmış fincan” (K.D.Uşinski) | Es.3.1.8,3.1.9<br>S.e.4.1.2.,4.2.2. | Müntəxəbat, şəkillər | Sentyabr IV həftə |
| 2.2.1.<br>2.2.2. | | “Pələng və Tülkü” (Tacik xalq nağılı) | Es.3.1.8,3.1.9<br>S.e.4.1.2.,4.2.2. | Müntəxəbat, şəkillər və maskalar | Oktyabr I həftə |
| 2.2.4.<br>2.2.6. | | “Payızda” (Nəriman Hüseyn) | Es.3.1.8,3.1.9.<br>S.e.4.1.2.,4.2.2. | Müntəxəbat, şəkillər, kompüter, proyektor | Oktyabr II həftə |
| 2.2.1.<br>2.2.2. | | Külək və günəş. (Rus xalq nağılı) | Es.3.1.8,<br>S.e.4.1.2., | Müntəxəbat, şəkillər | Oktyabr III həftə |
| 2.2.2.<br>2.2.5. | | Kirpi və alma (Az. xalq nağılı) | Es.3.1.8, 3.1.9<br>S.e.4.1.2., 4.2.2. | Müntəxəbat, şəkillər, kompüter, proyektor | Oktyabr IV həftə |
| 2.2.4.<br>2.2.6. | | “Ana vətən” (Nəri-man Hüseyn) | Es.3.1.8; 3.1.9<br>S.e.4.1.2.,4.2.2.<br>İd. 2.1.1. | Müntəxəbat, şəkillər | Noyabr I həftə |
| 2.2.4.<br>2.2.6. | | Alma ağacı (L.N. Tolstoy) | Es.3.1.8,3.1.9<br>S.e.4.1.2.,4.2.2. | Müntəxəbat, şəkillər, kompüter, proyekt | Noyabr II həftə |

**Cari (həftəlik) planlaşdırma** alt standartların həyata keçirilməsi məqsədilə ayrı-ayrı məşğələlər və məşğələdənkənar fəaliyyət növləri (oyun, gəzinti, əyləncə, sağlamlaşdırıcı tədbirlər və s.) üzrə aparılır.

Cari (həftəlik) planlaşdırma apararkən tərbiyəçi-müəllimin ilk işi mövzunun standarta uyğunluğunu müəyyənləşdirməkdir. Standart müəyyənləşəndən sonra, ona müvafiq mövzu seçilir. Artıq standarta və öyrənilən mövzuya uyğun müəyyənləşdirilən təlim məqsədləri tərbiyəçi- müəllimə deyil, uşağa yönəlməlidir. Əgər tərbiyəçi-müəllim məşğələnin məqsədini uşağın maraqları üzərində qurarsa, uğurlu və nəticəyönümlü təlim təşkil edə bilər. Uşağı təlimə cəlb etməyin yolu mövzuya və məqsədə uyğun fəal təlim forma və üsullarından yerində istifadə edilməsidir.

Məşğələ aşağıda göstərilən istiqamətlər üzrə planlaşdırılmalıdır:

- standart;
- mövzu;
- məqsəd;
- inteqrasiya;
- iş forması;
- iş üsulu;
- resurslar.

Plan dəftərinə yuxarıda göstərilən ardıcıllıq qeyd olunur. (Məşğələnin gedişi plan dəftərində yazılmır.)
Təlim zamanı məşğələnin mərhələlərinə diqqət yetirilməlidir.

**Məşğələnin mərhələləri:**

Məktəbəqədər təhsil müəssisəsində fəal təlim metodları ilə aparılan məşğələlərin əsasən, üçmərhələli strukturla həyata keçirilməsi məqsədəuyğun hesab edilir:

- ***motivasiya və ya aktuallaşdırma*** (mövcud biliklərin səsləndirilməsi və ya marağın yaradılması);
- ***dərketmə*** (yeni bilik və bacarıqların tədqiq edilərək fəal şəkildə öyrənilməsi);
- ***tətbiqetmə*** (qazanılmış bilik və bacarıqların tətbiq edilməsi).

***Aktuallaşdırma və ya motivasiya*** - məşğələ aktuallaşdırma, yəni mövcud biliklərin aşkara çıxarılıb səsləndirilməsi ilə başlayır. Əgər motivasiya yaratmaq çətindirsə və ya mümkün deyilsə, o zaman aktuallaşdırma ən yaxşı çıxış yoludur. Əlbəttə, motivasiya ilə başlanan məşğələ daha cəlbedici olur, lakin hər mövzu üçün maraqlı və cəlbedici motivasiya qurmaq mümkün olmadıqda, aktuallaşdırmadan istifadə edilir. Motivasiya "motiv" sözündən götürülmüşdür. Latın dilində tərcüməsi "hərəkətə gətirmək", "daxili ehtiyac yaratmaq" deməkdir. Məşğələ motivasiya ilə başlanır (yəni tərbiyəçi-müəllim tərəfindən problemin qoyulması, uşaq tərəfindən fərziyyələrin irəli sürülməsi). Deməli, tərbiyəçi-müəllim motivasiya yaradarkən uşaqlarda fikir söyləməyə daxili ehtiyac yaradır, onları düşünməyə "vadar edir". Düzgün qoyulmuş motivasiya uşaqda fəallıq yaradan səbəbdir.

*Motivasiyanı necə qurmaq lazımdır?*

- diqqəti cəlb etmək və uşağı maraqlandırmaqla;
- müxtəlif fərziyyələrə səbəb olan vəziyyət yaratmaqla;
- müstəqil tədqiqata həvəsləndirməklə;
- məktəbəqədər yaşlı uşağın imkanlarına müvafiqliyi nəzərə almaqla;
- uşağı öz bacarığını həyata keçirməyə sövq etməklə.

Tərbiyəçi-müəllim motivasiyanı elə qurmalıdır ki, uşağı təlimə cəlb edə bilsin. Bu mərhələdə tərbiyəçi-müəllim müxtəlif mövqelərin və variantların toqquşmasından yaranan vəziyyət əsasında sual qoyaraq uşaqları düşünməyə vadar edir. Motivasiya ilk növbədə tədqiqat üçün həm mümkün, həm də uşağın bacarıq və qabiliyyətinin həyata keçirilməsinə imkan verən, onun inkişaf xüsusiyyətlərinə müvafiq olmalıdır.

***Dərketmə*** - yeni bilik və bacarıqların tədqiq edilərək, yoxlanılaraq fəal şəkildə (yəni, uşağın özü tədqiq edərək, yoxlayaraq) öyrənilməsi, tapşırıqları həlletmə prosesində məlumatların, faktların axtarılması və toplanmasıdır. Dərketmə bilik və bacarıqların vəhdətdə formalaşması prosesidir. Verilmiş işi yerinə yetirmək üçün uşaqlar iş formasından asılı olaraq fikir mübadiləsi əsasında tədqiqat aparır, ümumi nəticəyə gəlirlər. Cütlərdə və ya qruplarda işləyən uşaqların öz aralarında seçdikləri liderlər verilmiş tapşırıqla bağlı ümumi fikri bütün qrupa və tərbiyəçi-müəllimə çatdırırlar.

İkinci mərhələdə motivasiyadan çıxan fərziyyələr dəqiqləşdirildikdən sonra artıq yeni biliyin əldə edilməsi işinə başlamaq olar. Tədqiqat müxtəlif formalarla – kollektivlə, qruplarla, cütlərlə və ya fərdi şəkildə aparıla bilər. İrəli sürülmüş problemin həlli üçün müxtəlif variantlardan istifadə olunur.

Bu mərhələdə təfəkkürün müxtəlif növlərindən istifadə edilir. Sonrakı mərhələdə tərbiyəçi-müəllim qazanılmış biliklərin ümumiləşdirilməsi məqsədilə suallar qoyur və bu suallar əsasında sistemləşdirmə apararaq, uşaqların əldə etdikləri nailiyyətləri təlimin məqsədləri və irəli sürülmüş fərziyyələrlə tutuşdurur. Məşğələ zamanı mərhələlər bir-birini rahat, xüsusi fərq olmadan əvəz etməlidir.

***Tətbiqetmə*** - qazanılmış bilik və bacarıqların tətbiq edilməsidir. Uşaqlar əldə etdikləri bilik və bacarıqları möhkəmləndirir və onların praktik əhəmiyyəti artır. Tətbiq etmək məqsədilə uşaqlara praktik tapşırıq verilir. Məktəbəqədər yaş dövründə əsas fəaliyyət növü oyun olduğu üçün tətbiqetmə zamanı mövzuya uyğun oyundan istifadə edilməsi məqsədəmüvafiqdir.

Məşğələ prosesində uşaqların yorulmasına yol vermək olmaz. Odur ki, məşğələlərdə öyrənmə vasitəsi kimi oyunlardan və ya oyun elementlərindən istifadə edilməlidir. Eyni zamanda, zehni gərginlik tələb edən məşğələlərdə idman dəqiqələrindən istifadə edilməsi məqsədəuyğundur. Körpələr qrupunda (1-2 və 2-3 yaşlı uşaqlar üçün) təşkil edilən məşğələlər mürəkkəb olmamalı, bir qayda olaraq oyun formasında keçirilməlidir.

**Təlim prosesinin idarəolunması** - əvvəlcədən planlaşdırılmış təlim nəticələrinə (standarta) nail olmaq üçün tərbiyəçi-müəllim və uşaqların qarşılıqlı təsiri, bütövlükdə onların (uşaqların) optimal inkişafının təmin edilməsinə, formalaşmasına və sabitləşməsinə istiqamətlənən məqsədyönlü fəaliyyətdir. İdarəetmə fəaliyyəti təlim prosesinin mövcud vəziyyəti ilə tələb olunan vəziyyət arasında uyğunsuzluğun aradan qaldırılmasına istiqamətlənməlidir. Təlim prosesinin idarə olunmasının mahiyyəti müəssisə rəhbərinin və tərbiyəçi-müəllimin bu prosesin tamlığını və bütövlükdə idarəetmənin keyfiyyətinin yüksədilməsini təmin edən məqsədyönlü fəaliyyətdən ibarətdir.

Məktəbəqədər dövrdə təşkil edilən məşğələlərin spesifik xüsusiyyətləri vardır. Onlar bir qayda olaraq məşğələyə oyun elementləri daxil edilərək aparılır və bu zaman uşağın məktəbəqədər təhsil müəssisəsinə uyğunlaşma dərəcəsi nəzərə alınır. Məşğələlər mürəkkəb olmamalıdır. Hazırlanmış material uşaqların yaş və fərdi xüsusiyyətləri, onların hazırlıq səviyyəsini nəzərə alaraq 2-3 hissəyə bölünərək, ayrı-ayrı günlərdə keçirilməlidir.

***Tərbiyəçi-müəllimlərə tövsiyə***

*Təlim planları uşaqların müvafiq səviyyələrini nəzərə alan proseduru əks etdirir. Bundan sonra, ardıcıl olaraq, planlaşdırmaya müxtəlif yanaşmalar ola bilər. Planın da özünün əsas təşkilati məqsədləri var:*

*- Uşaqların nailiyyət səviyyələrinə uyğun olaraq, hər bir uşaq üçün fərdi təlim təcrübəsini təmin etmək;*
*- Tam bir qrup üçün təcrübənin təmin edilməsi (məsələn, mahnının öyrənilməsi);*
*- Qrup müzakirələri və fərdi işlə müşayiət olunan məşğələnin hamısını və yaxud müəyyən hissəsini əhatə edən təlim təcrübəsini təmin etmək).*

*Burada, tərbiyəçi-müəllimlər nəyi nəzərdə tutduğunu və bunu necə etmək niyyətində olduğunu aydın şəkildə göstərə bilərlər.*
*Yadda saxlayın:*

*Burada məqsədlər mühümdür. Məqsədlərinizi diqqətlə söyləyin və özünüzə aşağıdakı sualları verin.*

- *Bu məqsədə nail olmaq uşağı inkişaf etdirirmi?*
- *Məqsədlər standartı reallaşdırırmı?*
- *Uşaq bunları öz təcrübəsində istifadə edə biləcəkmi?*
- *Bunun üçün hansı şərait yaradılmalıdır?*

*Yadda saxlayın ki, siz bir qrupla deyil, iyirmi uşaqla işləyirsiniz. Uşaqların hamısı ilə işləyərkən, bütün vaxt ərzində hər bir uşağın fəaliyyətlə məşğul olması vacibdir. Siz uşaqların inkişaf səviyyələrindən asılı olmayaraq, onların hamısının bütün vaxt ərzində işləmələri və öyrənmələri üçün mövcud şəraiti yaratmalısınız..*

## *Məşğələ nümunələri*

## Körpələr qrupu (1-2 yaşlı uşaqlar üçün)

**1. Ətraf mühitlə tanışlıq və nitq inkişafı**
Standart.
2.2.5. Danışığında 1-2 sözdən ibarət sadə cümlələr qurur.
2.2.2. Şəkillər üzrə tanış obyektləri adlandırır.
2.2.3. Böyüklərin təklifi ilə "salam", "sağ ol" sözlərindən istifadə edir.
Mövzu: Şaxta babanın böyük və kiçik hədiyyələri
Məqsəd: - Sadə cümlələr qurur.
- "Salam", "sağ ol" sözlərindən istifadə edir.
- Tanış obyektləri adlandırır.
İnteqrasiya:
İd.in.[2] 2.3.2. Ölçü anlayışını başa düşdüyünü (böyükdür, kiçikdir) nümayiş etdirir;
2.3.3. İki oxşar əşyanı seçir;
İş forması: Kollektiv, fərdi.
İş üsulu: Əqli hücum, suallar.
Resurslar: Böyük və yumşaq dovşan oyuncağı, zənbil, oyuncaqlar.

**Məşğələnin gedişi**

Uşaqlar stullarda dairəvi otururlar. Bu zaman əlində boyük zənbil tutmuş dovşan qrup otağına daxil olur.
***Motivasiya.***
*Dovşan:* - Salam uşaqlar! (Uşaqlar da salamlaşırlar) Mən sizin yanınıza gəlməyə tələsirdim. Çünki, sizə hədiyyələr gətirmişəm. Bilirsiniz, onları sizə kim göndərib? Onları Şaxta baba göndərib.
*Tərbiyəçi-müəllim:* - Dovşan, çox sağ ol! Şaxta baba da çox sağ olsun. Uşaqlar, baxaq görək, bizim qrup otağında Şaxta babanın şəkli var? (Uşaqlar qrup otağında hərəkət edərək, şaxta baba şəklini tapırlar və göstərirlər.)
*Tərbiyəçi-müəllim:* -Düzdür, uşaqlar. Baxın, bizim lövhədəki tabloda da Şaxta babanın şəkli var. (Uşaqlar lövhəyə yaxın gəlib, tərbiyəçi-müəllimin təklifi ilə təsviri adlandırırlar.) Görək Şaxta baba bizə nə göndərib? (Uşaqlar zənbil qoyulmuş stola yaxınlaşırlar). Şaxta baba sizin üçün nə gözəl oyuncaqlar göndərib!
***Dərketmə***.
*Dovşan:* -Uşaqlar, mən əvvəlcə sizinlə "Böyük və kiçik" oyununu oynayacağam, sonra bu oyuncaqları sizə bağışlayacağam. Baxın, bu ayı böyükdür (zənbildən götürür). Əhməd, sən mənə balaca ayını tap. Bu isə balaca topdur. Əli, sən belə oyuncağı tap və s. Afərin uşaqlar!
***Tətbiqetmə.***
*Tərbiyəçi-müəllim:* - Uşaqlar, siz oyuncaqları düzgün tapdınız. İndi isə baxaq, görək zənbildə daha nə var? (şirə içmək üçün borucuq) Uşaqlar, gəlin küləyin kağızı necə əsdirdiyini dovşana göstərək.
Tənəffüs gimnastikası "vərəqi üfür". (Tərbiyəçi qabaqcadan kiçik hissələrə ayrılmış kağız parçaları üzrə təcrübəni təşkil edir).
*Dovşan:* - Afərin uşaqlar, mən bilmirdim ki, külək kağızı uçurub aparır. Sizinlə oynamaq mənim çox xoşuma gəldi. Ona görə də mən hədiyyələri sizə verəcəyəm, (oyuncaqları paylayır). Sağ olun! (Uşaqlar da onunla sağollaşırlar). Mən yenə də gələcəyəm!

2. İdraki inkişaf

## 2. Hərəkətlərin inkişafı məşğələsi

Standart:
1.1.1. Sadə fiziki hərəkətləri (qalxıb-oturur, yanlara dönür, sərbəst yeriyir, 3-4 metr məsafəni qaçaraq, maneələrdən yan keçir) yerinə yetirir.
Mövzu: "Qatarla səyahət"
Məqsəd:
- Bir-birinin ardınca sərbəst yeriyir.
- 3-4 metr məsafəyə qaçır.

İnteqrasiya:
İd.in. 2.1.6. Ətraf mühitdə baş verən hadisələri 1-2 sözlə ifadə edir.
2.1.4. Böyüklərin göstərişi ilə tanış obyektləri göstərir.
İş forması: Kollektiv, fərdi.
İş üsulu: Suallar.
Resurslar: Oyuncaq dovşan, içərisində su olan ləyən, kiçik daşlar, qabaqcadan kəsilmiş dairəvi kağız parçası.

### Məşğələnin gedişi

*Tərbiyəçi-müəllim:* - Uşaqlar bu gün biz sizinlə gəzməyə gedəcəyik. Bəs biz gəzməyə nə ilə gedək? (uşaqların cavabı)
*Tərbiyəçi-müəllim:* -Yaxşısı budur qatarla gedək.
*Tərbiyəçi-müəllim oxuyur:*
Qatar gəlir uzaqdan,
Tak-tak, tak-tak, tak-tak-tak.
Gözləyirəm bayaqdan,
Tak-tak, tak-tak, tak-tak-tak.
*Tərbiyəçi-müəllim:* -Uşaqlar, biri-birimizdən yapışaraq, qatar kimi gedək. Tərbiyəçi-müəllim qabaqda, uşaqlar isə bir-birinin çiynindən yapışıraq, tak-tak deyə-deyə gedirlər.
- Getdik, getdik, getdik.
- Biz hara gəldik?
*Tərbiyəçi-müəllim:* - Biz meşəyə gəldik. Baxın görün burada kim yaşayır? (Kənarda qabaqcadan qoyulmuş dovşan oyuncağı var). (Uşaqların cavabları)
-Düzdür. Burada dovşan yaşayır.
-Gəlin, əyilib dovşanı tumarlayaq. Uşaqlar, dovşanlar belə tullanır. Baxın! (özü göstərir) Bəs necə qaçır? Göstərin! (göstərirlər) Dovşanlar kök yeməyi xoşlayır. Siz də kök yeməyi xoşlayırsınız? (uşaqların cavabları)
*Tərbiyəçi-müəllim:* - Uşaqlar, gəlin, yolumuza davam edək.
- Getdik, getdik, getdik.
- Biz hara gəldik?
Uşaqlar əvvəlcədən hazırlanmış içərisində su olan tasın yanında dayanırlar. (su ilə oyun)
*Tərbiyəçi-müəllim:* -Uşaqlar, gəlin əlimizi suya vuraq. Su necədir? (Uşaqların cavabları)
- Baxın, mən kağızı suya buraxıram. Baxın, kağız nə edir? (üzür)
Axırda tərbiyəçi-müəllim uşaqlara kağız parçalarını paylayır ki, evdə valideynləri ilə birlikdə suya buraxsınlar.

## 3. Sensor tərbiyə məşğələsi

Standart:
2.3.1. "Bir" və "çox"anlayışlarını əşyalar üzərində fərqləndirir.
Mövzu: " Bir və çox anlayışları "
Məqsəd:
- "Bir" və "çox" anlayışlarını əşyalara əsasən düzgün ifadə edir.
- Əşyaları müəyyən əlamətinə görə fərqləndirir.

İnteqrasiya:
İd.in. 2.2.2. Şəkillər üzrə tanış obyektləri adlandırır;
2.2.6. Nitqində böyük, çox sözlərindən istifadə edir.

İş forması: Kollektiv və fərdi iş.
İş üsulu: Suallar, əqli hücum, müzakir.
Resurs: Ana və bala ördək oyuncaqları, içərisində su olan ləyən, böyük, kiçik ölçülü toplar, topları yığmaq üçün səbət, torbalar, müxtəlif şəkillər.

**Məşğələnin gedişi**

***Qeyd:*** Qabaqcadan 3 torba hazırlanır, birinə ana ördək, digərinə bala ördəklər yerləşdirilir və qrupda müxtəlif yerlərə qoyulur. Boş torba isə tərbiyəçi-müəllimdə olur.

***Motivasiya.***
*Tərbiyəçi-müəllim:* -Uşaqlar, baxın mənim əlimdə torba var. Torba neçə dənədir? (Uşaqların cavabları) Baxaq görək otaqda bu torbadan yenə var? (Uşaqlarla birlikdə qrup otağında ora-bura gedərək, torbaları axtarıb, tapıb masaya qoyur) Baxın, uşaqlar, indi artıq çoxlu torbamız var. Bir torbanı mən gətirdim, qalanlarını isə birlikdə tapdıq. İndi bizim çoxlu torbamız var. Gəlin yoxlayaq görək, bu torbalarda nə var? (Uşaqlar əlləri ilə torbanı yoxlayaraq, içindəkilərə dair düşündüklərini söyləyirlər).
***Dərketmə***.
*Tərbiyəçi-müəllim:* -Bizim boş torbamız hansıdır? (*Uşaqların cavabları*) Düzdür, baxın, içində heç nə yoxdur.
Bəs bu torbada nə var? (*Uşaqların cavabları*)
Tərbiyəçi-müəllim torbadan ana ördəyi çıxarıb masanın üzərinə qoyur. - Uşaqlar bu nədir? (*Uşaqların cavabları*)
İndi isə bu biri torbaya toxunaq və görək burada nə var? (*Uşaqların cavabları*)
Tərbiyəçi-müəllim torbada olanları çıxarır və ana ördəyin yanına düzür . - Uşaqlar, baxaq görək ana ördək böyükdür, yoxsa bala ördəklər? (*Uşaqların cavabları*)
- Hansı ördəklər çoxdur? (*Uşaqların cavabları*) Gəlin, bala ördəkləri "gölə" buraxaq. (Uşaqlarla birlikdə bala ördəkləri qabaqcadan hazırlanmış içərisində su olan ləyəndə suya buraxır.)
- Uşaqlar, neçə ördəyimiz qaldı? (*Uşaqların cavabları*) Gəlin, ana ördəyi də bala ördəklərin yanına qoyaq. Ana ördək bala ördəklərə üzməyi öyrətsin.
***Tətbiqetmə.***
Oyun.
Torbadakı bir böyük və çoxlu kiçik topları yerə boşaldırıq. Çoxlu toplar yerləşəcək boş səbət qoyuruq. Uşaqlara müraciət edirik:

- Səbətin içində nə var? (*Uşaqların cavabları*)
Kiçik topları boş səbətə yığmağı uşaqlara təklif edirik. Yığdıqdan sonra:
- Boş səbətə nə yığdıq?
- Yerdə nə qaldı?
- Kiçik topumuz çoxdur, yoxsa böyük topumuz?
Tərbiyəçi-müəllim məşğələni ümumiləşdirib, yekunlaşdırır.

## 2-3 yaş

**1. Ətraf mühitlə tanışlıq və nitq inkişafı məşğələsi**
Standart:
E.y.in.[3] 3.1.2. Əsas rəngləri (qırmızı, sarı, yaşıl) adlandırır
Mövzu: Didaktik oyun. "Xoruzun quyruğu üçün tük bağışlayaq".
Məqsəd:
- Əsas rəngləri adlandırır.
- Verilən suallara əsasən fikrini bildirir.
İnteqrasiya: İd.in. 2.1.4. Canlı (insan, heyvan, quş, bitki) və cansız (qum, daş, torpaq, işıq) obyektləri adlandırır. 2.1.2. Sadə suallar əsasında danışır.
İş forması: Kollektiv, fərdi.
İş üsulu: Əqli hücum, suallar.
Resurslar. Xoruzun rəngli təsviri (quyruqsuz), xoruzun quyruğu üçün rəngli kağızlardan kəsilmiş "tüklər".

3. Estetik-yaradıcı inkişaf

**Məşğələnin gedişi**

***<u>Motivasiya</u>***. Tərbiyəçi-müəllim xalçanın üzərində oynayan uşaqlara müraciət edir:
- Uşaqlar, bura gəlin, görün bizə kim qonaq gəlib? (Uşaqların cavabı: Xoruz)
*Tərbiyəçi-müəllim:* - Uşaqlar, o bizi çağırdı, amma mən onun səsini eşitmədim. Xoruz necə banlayır? (quq-qulu-quuuu).
***<u>Dərketmə</u>***. Tərbiyəçi-müəllim quyruqsuz xoruz şəklini flaneloqrafa yapışdırır. Quyruğunun başlandığı yerdə dəlik açır. Stolun üzərinə 3 rəngdə "tüklər" düzür. Tərbiyəçi-müəllim uşaqların diqqətini xoruza cəlb edib deyir:
- Uşaqlar, xoruz istəyir ki, onun qəşəng quyruğu olsun. Amma böyük uşaqlar xoruz şəklini çəkəndə onun quyruğunu çəkməyiblər. İndi xahiş edir ki, uşaqlar ona qırmızı, yaşıl və sarı rəngdə tüklər bağışlasınlar (göstərir).
*Tərbiyəçi-müəllim:* - Yaxşı, xoruz. Biz sənə rəngli tüklər bağışlayacağıq. Xoruz, sən belə tük istəyirsən? Qırmızı rəngdə olan tükü uşaqlara göstərib soruşur:
- Uşaqlar, mən bu tükü xoruza bağışlamaq istəyirəm. Bu tük nə rəngdədir? (qırmızı).
*Tərbiyəçi-müəllim:* - Al, bu qırmızı tükü sənə bağışlayırıq. (Xoruz tərbiyəçi-müəllimə təşəkkür edir).
Sonra uşaqlar bir-bir müstəqil olaraq müxtəlif rəngli tükləri seçir, digər uşaqlara göstərir və rəngini söyləyirlər. (Mən xoruza sarı tükü bağışlayıram.).
Əgər uşaq tükün rəngini söyləyərkən səhv edərsə, xoruz o zaman deyir: "quq-qulu-qu, mən başqa tükü istəyirəm."
***<u>Tətbiqetmə</u>***.Sonda uşaqlar qəşəng xoruz quyruğuna tamaşa edirlər.
*Tərbiyəçi-müəllim:*- Biz xoruza qəşəng tüklər bağışladıq. Gəlin, bir daha həmin tükləri göstərək və rəngini söyləyək. (Uşaqların cavabları) Görün, o sizdən necə də razı qaldı. O, indi gedəcək. Gəlin, ona şeir oxuyaq:
Ay pipiyi qan xoruz,
Gözləri mərcan xoruz.
Sən nə tezdən durursan
Qışqırıb, banlayırsan!?
Quq-qulu-quuuuuu
Tərbiyəçi-müəllim uşaqları rəğbətləndirərək, məşğələni yekunlaşdırır.

**<u>2. Sensor tərbiyə məşğələsi</u>**
Standart:
2.3.3. Dairəvi əşyaları adlandırır
<u>Mövzu:</u> "Çiçək"
Məqsəd:
- Dairəvi əşyaları seçir və adlandırır.
- Hazır əşyaları yapışdırır.

İnteqrasiya:
İd.in. 2.1.3.Müşahidə etdiyi əşyaları adlandırır və göstərir;
S.e.in[4] 3.1.3. Hazır formaları kağız üzərində yerləşdirir;
İş forması: Kollektiv və fərdi iş.
İş üsulu: Suallar, əqli hücum, söz assosiasiyası, rollu süjetli oyun.
Resurs: 3 qutu, rəngli kağızdan kəsilmiş sarı və ağ dairələr, top, boşqab, təkər, alma, kələm, günəş şəkli.

**Məşğələnin gedişi**

**<u>Qeyd:</u>** Qabaqcadan 2 qutu hazırlanır və qrup otağında müxtəlif yerlərə qoyulur. I qutunun içərisində uşaqların sayı qədər kağızdan kəsilmiş böyük sarı dairələr, II qutunun içərisində isə kağızdan kəsilmiş çoxlu ağ kiçik dairələr. (Sarı dairə ortaya, ağ dairələr isə sarı dairənin kənarlarına yapışdırılaraq çiçək təsviri alınacaq)
***<u>Motivasiya.</u>***
*Tərbiyəçi-müəllim:* - Uşaqlar, baxın bizim qonağımız var (tərbiyəçi-müəllim öncədən hazırladığı dairəni əlində tutur və uşaqlara müraciət edir).
<u>Dairənin səsi</u> ilə - Salam, uşaqlar! Məni tanıyırsınız? (Uşaqların cavabları)
- Mən sizinlə tanış olmağa gəldim. Amma adımı unutmuşam, deyə bilməyəcəm. Kömək edin, mənə adımı

4. Sosial-emosional inkişaf

tapım. Mən nəyə oxşayıram?
Günəşə bənzədirlər
Gah topa, gah təkərə.
Meyvələrdən almaya,
Portağala, alçaya.
Tərəvəzlərdən deyim.
Kələmə, çuğundura,
Turpa da oxşadırlar.
Siz bilərsiz uşaqlar,
Nə üçün oxşadırlar
Bütün bunlara onlar?

***Dərketmə***.

*Tərbiyəçi-müəllim:* -Uşaqlar, mən sizə şeir söylədim. Gəlin, görək qrupumuzda şeirdə deyilən kimi qonağımıza oxşayanlardan hansılar var? Əvvəlcə dolaba baxaq. Nələrə bənzətmişdilər qonağımızı? Yadıma salın, uşaqlar. Boşqab demişdilər? (Uşaqların cavabları)

- Daha nə demişdilər? (Tərbiyəçi-müəllim uşaqları istiqamətləndirərək adları tələffüz etməyə, xatırlamağa sövq edir)

(Bu məşğələdə tapşırıq hərəkətli olduğu üçün idman dəqiqəsi verilməyə də bilər. Uşaqlar əşyaları axtararkən, qrup otağında ora-bura gəzirlər və tapdıqlarını masaya qoyurlar)

*Tərbiyəçi-müəllim:* - Hansınız tapsanız gətirib masanın üzərinə qoyun (tərbiyəçi-müəllimin köməyi ilə boşqab, top, adları çəkilən meyvələrdən, tərəvəzlərdən və s. masanın üzərinə qoyurlar). Gəlin baxaq, qonağımız bunlardan hansına oxşayır?( Uşaqları dinləyir). Baxın, bunlar hamısı bir-birinə oxşayır. Əlimizlə toxunaq, hamısı dairəvidir (Dairəviliyi hiss etmək üçün uşaqlar onun kənarına toxunurlar). Baxın, qonağımız da boşqab, top, alma və s kimi dairəvidir. Baxın, top, təkər, alma biz bunları diyirlədə bilirik. Onlar yumru olduqları üçün diyirlənir.

***Tətbiqetmə.***

*Qonaq:* - Onlar bir – birinə oxşayırlar? Məni onlara niyə oxşadırlar? (Uşaqların cavabları)

- Uşaqlar, afərin sizə. Siz çox fəalsınız. İndi isə mənim adımı tapın. Mənə demişdilər ki, onların nəyə oxşadığını tapsan, adını da tapacaqsan.

*Tərbiyəçi-müəllim:* - Uşaqlar, gəlin biz adlar deyək, bəlkə yadına düşər. Lakin adlar bu əşyalarla qonağımızın oxşarlığına aid olmalıdır. Siz dediniz onlar nəyə oxşayırlar? Gəlin, bir daha söyləyək. (Tərbiyəçi-müəllim uşaqları dairə, yumru sözünə istiqamətləndirir) (Uşaqların cavabları)

*Tərbiyəçi-müəllim:* - Bəli, tamamilə doğrudur. Dairə!

*Qonaq:* - Yadıma düşdü! Bəli, tapdınız! Mənim adım dairədir. Təşəkkür edirəm. Adımı tapdığınız üçün bu qutularda mənim sizə hədiyyələrim var. Gəlin, qutuları açaq və hədiyyələrə baxaq. (Qutuların birinə uşaqların sayı qədər sarı rəngdə dairə, o biri qutuya isə çoxlu sayda ağ rəngli dairələr qoyulub.)

- (Qonaq uşaqlarla bərabər birinci qutunun içərisinə baxır) Qutunun içində nə var? (Uşaqların cavabları)

- Bəli, sarı dairə. O biri qutuya baxaq. (Tərbiyəçi-müəllim qutunu götürüb, uşaqlara verir. Uşaqlar qutunu açır) Qutuda nə var? (Uşaqların cavabları).

*Tərbiyəçi-müəllim:* - Uşaqlar, bunlar nədir?

*Qonaq:* - Bəli, burada ağ rəngli dairələr var. Sarı rəngli dairəni ortaya, ağ rəngli dairələri isə çiçəyin ləçəkləri kimi kənarları ilə yapışdırarsınız. Çiçək alınacaq. İndi isə mən gedim. Mənim adımı yadıma saldınız. Afərin sizə, uşaqlar!

*Tərbiyəçi-müəllim:* - Uşaqlar, gəlin sağollaşaq. Çiçəklərimizi sonra yapışdırarıq.

## 3-4 yaş

**1. Məntiqi və riyazi təfəkkürün inkişafı məşğələsi**

Standart:
2.3.1.Əşyalarla 3 dairəsində riyazi əməliyyatlar yerinə yetirir.
2.3.3. Həndəsi fiqurları (dairə, kvadrat, üçbucaq) adlandırır.
Mövzu: Fermaya səyahət

Məqsəd:

- 3 dairəsində riyazi əməliyyatları yerinə yetirir.
- Dairə, kvadrat, üçbucağı seçir və adlandırır.

İnteqrasiya:
S.e.in. 3.1.2. Təsvirlərində uyğun rənglərdən istifadə edir.
İd.in. 2.1.4.Canlı və cansız aləmin obyektlərini (insan, heyvan, quş, bitki, qum, daş, torpaq, işıq) qruplaşdırır və düzgün davranış (qorumaq, mühafizə etmək, qiymətləndirmək) bacarığı nümayiş etdirir.
İş forması: Kollektiv, fərdi.
İş üsulu: Əqli hücum, suallar.
Resurslar: "Ev heyvanları" oyuncaq komplekti, göbələk, dairə, üçbucaq, kağız, rəngli karandaşlar.

**Məşğələnin gedişi**

***Motivasiya.***
*Tərbiyəçi-müəllim:*-Uşaqlar, biz sizinlə gəzməyə gedəcəyik. Bilirsiniz, hara gedəcəyik? Amma əvvəlcə siz mənə deyin görək, ev heyvanları harada yaşayır? Hansı ev heyvanlarını tanıyırsınız? (Uşaqların cavabları). Bilirsiniz, ev heyvanları evdən başqa, fermada da yaşayırlar. Bu gün biz sizinlə fermaya gedəcəyik. Gəlin, gedək. ("gedirlər", qrup otağında sağ və sol tərəflərə böyük və kiçik ölçülü göbələklər düzülür)
***Dərketmə.***
*Tərbiyəçi-müəllim:*-Uşaqlar, baxın, yolun kənarında nə bitib? (Uşaqların cavabları) (Göbələk)
- Göbələklər nə qədərdir? (çoxlu)
- Bəs burada neçə göbələk var? (bir dənə)
- Bəs göbələk nə boydadır? (böyük)
- Bəs nə rəngdədir? (Uşaqların cavabları)
- Yolumuza davam edək. Qabağımıza çay çıxdı. Gəlin, çayın üzərindən tullanaq. Hamımız birlikdə tullanırıq. (Tullanırlar). Biz niyə tullandıq? (uşaqların cavabları) Gəlin, yolumuza davam edək. Yenə qarşımıza göbələk çıxdı. Bunlar necədir? (balaca) Bəs neçə dənədir? (bir dənə)
- Bu göbələk nə boydadır? (kiçik)
- Hə, biz gəlib fermaya çatdıq. Baxın, yaşıl otlaqda heyvanlar otlayır. Hansı heyvanları görürsünüz? Gəlin, onları adlandıraq (inək, qoyun, at, keçi)
- Nə qədər heyvan var? (çox)
- Baxın, bu hansı heyvandır? (at) At neçə dənədir? (bir dənə). At necə səs çıxarır?
- Bəs inək neçə dənədir? Sayaq. (iki) Uşaqlar, inək necə səs çıxarır? (mooooo). İnək insanlara nə verir? (süd)
- Görək qoyun neçə dənədir? (sayaq) (üç)
- Qoyun necə səs çıxarır? (məəəə)
Keçi necə səs çıxarır? - Bəs keçi nə qədərdir? (çox)
- Afərin uşaqlar! Görürsünüz fermada nə qədər heyvan yaşayır! Axşam olanda heyvanlar yatırlar. Gəlin, onları evlərə yerləşdirək. Baxın, görün məndə nə var! (dairə, kvadrat, üçbucaq)
- Bu nədir? (dairə)
- Nə rəngdədir? (qırmızı)-Gəlin, buraya qoyunları yerləşdirək. (yerləşdirirlər)
- Bəs bu nədir? (üçbucaq)
- Nə rəngdədir? (göy)
- Bura isə at ilə inəkləri yerləşdirək.
- Bu nədir? (kvadrat)
- Nə rəngdədir? (yaşıl)
- Bura isə keçiləri yerləşdirək.

İdman dəqiqəsi.
Meşədə gül dərmək üçün, (əllər beldə)
Gəlin aşağı əyilək. (aşağı əyilirlər)
Bir çiçək, (sağ əli sol ayağa çatdırmaq )
İki çiçək, (sol əli sağ ayağa çatdırmaq)
***Tətbiqetmə*** .
*Tərbiyəçi-müəllim:*-Uşaqlar, eşidirsiniz? (Stola yaxın gəlib və qulağını ata yaxınlaşdırır).
- Aha! At mənim qulağıma nə isə deyir. O, istəyir ki, siz onun üçün ev şəkli çəkəsiniz.Yoxsa bir üçbucağın

içərisində inəklərlə onun yeri dardır.Çəkək? (bəli)
- Stolların üzərində hər biriniz üçün ağ vərəq var. Baxaq, görək orada nə çəkilib? (üçbucaq). Rəngli karandaşı götürüb, xəttin üzərindən gedib, içərisini rəngləyirik. Afərin!
Sonda tərbiyəçi-müəllim ümumiləşdirmə məqsədilə deyir:
- Biz bu gün sizinlə hara getdik və nə gördük? (fermaya getdik və ev heyvanlarını gördük). Uşaqlar rəğbətləndirilir və məşğələ yekunlaşdırılır.

## 4-5 yaş

**<u>1. Ətraf mühitlə tanışlıq və nitq inkişafı məşğələsi</u>**
Standart:
2.1.4. Canlı və cansız aləmin obyektlərini tədqiq edərək, nəticə çıxarır.
2.1.6. Gündəlik rast gəldiyi hadisələrin səbəb-nəticə əlaqələrini müəyyən edir.
<u>Mövzu:</u> "Yurdumuza bahar gəlir" .
Məqsəd:
- Canlı və cansız aləmin obyektlərini sadalayır.
- Səbəb-nəticə əlaqələrini müəyyənləşdirir.
- Təbiətdə baş verən fəsli dəyişikliklər haqqında danışır.

İnteqrasiya:
İd.in. 2.2.5. 3-4 cümlədən ibarət mətn qurur;
2.2.6. Nitqində əlamət, keyfiyyət, hiss bildirən sözlərdən istifadə edir.
İş forması: Kollektiv, fərdi, qruplarla.
İş üsulu: Əqli hücum, suallar.
Resurslar. Bahar fəsli haqqında tablo, ağac, köçəri quşlar, vəhşi heyvan şəkilləri.

**Məşğələnin gedişi**

***<u>Motivasiya</u>***. Bahar qız qapını döyüb, otağa daxıl olur və uşaqlarla salamlaşır.
*Bahar qızı:*- Salam, uşaqlar. Mən sizə qonaq gəlmişəm. Siz məni tanıdınız? Nədən tanıdınız? O zaman yazın əlamətlərini söyləyin (uşaqların cavabları) (qar əriyir, günəş daha isti olur, havalar istilənir, təbiət canlanır, ağaclar yarpaqlayır, çiçək açır, quşlar uçub gəlir və s.).
*Bahar qızı:*-Uşaqlar, kim mənə bahar haqqında şeir söyləyər? Amma elə söyləyin ki, mənim xoşuma gəlsin. (Uşaqların cavabları).
***<u>Dərketmə</u>***.
*Bahar qızı:*- Afərin uşaqlar! Bahar təkcə bizim bağçamıza, küçəmizə deyil, bütün bağlara, çöllərə, meşələrə də gəlib. Meşədə çoxlu ağaclar olur. Siz ağacların adlarını bilirsiniz? Ağacın hissələrini adlandırın. Bəs ağacların böyüməsi, inkişafı üçün nə lazımdır? (işıq, isti, su, hava)
- Su və hava ağaclara nə üçün lazımdır? (Uşaqların cavabları dinlənilir, suallar vasitəsi ilə düzgün cavaba istiqamətləndirilir)
- Uşaqlar, indi isə sizi meşəyə dəvət edirəm.
İdman dəqiqəsi.
Bahar gəlir, yaz gəlir (addımlayırlar)
Günəş yeri qızdırır (günəşə doğru dartınmaq və özünü qucaqlayıcı hərəkətlərlə tumarlamaq).
Külək əsir, hər yana (əllərini yanlara doğru açırlar)
Çiçək ətri yayılır.
Quşlar ötür, oxuyur (əllərini yelləyirlər)
Günəş ilə rəqs edir. (fırlanır)
*Bahar qızı:* - Siz bilirsiniz ki, payızda köçəri quşlar uçub isti ölkələrə gedirlər. Onlar niyə uçub isti ölkələrə gedirlər? (Uşaqların cavabları) Düzdür, onlar qışda burada qalsalar məhv olarlar. Odur ki, uçub gedirlər. Baharda isə quşlar yenidən uçub gəlirlər. Hansı köçəri quşları tanıyırsınız? (qaranquş, durnalar).
- Kim mənə qaranquş haqqında şeir söyləyər? (Uşaqlar söyləyirlər)
*Bahar qızı:* - Afərin uşaqlar! Bəs siz tapmaca sevirsiniz? (Bahar qız kirpi, dovşan,canavar, tülkü haqqında tapmacalar düşünür) Bu tapmacaların açmasını tapın.

Yatanda yumru yatar,
Ətini dərmana qatar.
Kim istəsə onu tuta
Tikanları əlinə batar.
(Kirpi)

Boz rəngdədir, dişləri var,
Hər tərəfi gəzir, gəzir,
Özünə ov axtarır.
(Canavar)

Qulaqları şəkk olur,
Quyruğu gödək olur.
(Dovşan)

Şələ quyruq, tükü kürən,
Çox hiyləgər bir heyvan.
(Tülkü)

*Bahar qızı:* - Uşaqlar, bu heyvanlar harada yaşayırlar? Bəs bu heyvanları bir sözlə necə adlandırmaq olar? (meşə heyvanları, vəhşi heyvanlar) Düzdür, uşaqlar! Bəs kim deyər, ayılar qış yuxusundan nə vaxt ayılırlar? (Uşaqların müxtəlif fərziyyələri dinlənilir. Ayılar baharda qış yuxusundan ayılır, dovşanın tükləri yazda boz rəngdə olur və s.)
*Bahar qızı:*-Uşaqlar, gəlin, "Nə vaxt olur?" oyunu oynayaq. (Uşaqlar 2 qrupa bölünür. Tərbiyəçi-müəllim oyunun qaydası ilə uşaqları tanış edir. I komanda II komandaya suallar verir:
- Ağaclar nə vaxt çiçək açır?
- Qaranquşlar nə vaxt uçub gəlirlər?
- Novruz bayramı nə vaxt olur?
- Analar bayramı nə vaxt olur? və s.

Məşğələnin sonunda uşaqlar rəğbətləndirilir, məşğələ ümumiləşdirilərək, yekunlaşdırılır.

## 5-6 yaş

### 1. Bədii təfəkkürün inkişafı məşğələsi

Standart:
2.2.1. Dinləyib-anladığı fikirləri şərh edir;
2.2.2. Bədii nümunə, müşahidə və şəkillər əsasında fikrini sadə şəkildə şərh edir.
Mövzu: «Qurd və dovşan» Azərbaycan xalq nağılı.
Məqsəd:
- Dinlədiyi fikirlərə münasibət bildirir.
- Nağıldakı hadisələrlə bağlı fikirlərini sadə və rabitəli şəkildə şərh edir.
- Dinlədiyi mətni anladığını nümayiş etdirir.

İnteqrasiya:
2.1.3 Ətraf aləmdə baş verən hadisələr, iqlim, heyvanlar (ev və vəhşi heyvanlar) bitkilər təbiətdəki mövsümi dəyişikliklər haqqında ilkin təsəvvürlərini təsvir edir.
İş forması: Kollektiv, fərdi.
İş üsulu: Nağıletmə, müzakirə, suallar.
Resurslar: Nağıla aid atributlar, uşaq üçün vəsait, rəngli karandaşlar və ağ kağız.

**Məşğələnin gedişi**

***Motivasiya:*** Tərbiyəçi-müəllim uşaqların diqqətini müxtəlif nağıllardan personajlar təsvir olunmuş tabloya (imkan varsa, lövhəyə proyektorla salınsın) cəlb edir: - Uşaqlar, gördükləriniz haqqında nə deyə bilərsiniz? Bəli, müxtəlif nağıllardandırlar. Sonra şəkillərin içərisindən qurd və dovşan şəkillərini göstərib soruşur: - Sizə qurd və dovşan nağılını söyləyəcəyəm. Uşaqlar, sizcə, dovşan qurdu aldada bilər? (Uşaqların fərziyyələri dinlənilir)
*Tərbiyəçi-müəllim:* Uşaqlar, bu gün biz dovşan və qurdla bağlı maraqlı bir nağılla tanış olacağıq.
Dərketmə. Müəllim nağılı danışmağa başlayır:
Biri var idi, biri yox idi. Bir dovşan var idi. Bir gün dovşan yuvasında balalarından birini görmədi.
Balaca dovşanın yerini soruşanda balalardan biri dedi:
- O, bizim sözümüzə baxmayıb, yuvadan çıxdı.Qurd da onu ağzına alıb apardı.

Ana dovşan bütün gecəni yatmadı. Səhər tezdən meşəyə baxıb gördü ki, bir ovçu dərədə çala qazıb, tələ qurub.
Dovşan tələni görən kimi sevindi.Qurdu axtarmağa getdi. Xeyli gəzəndən sonra qurda rast gəldi:

- Hi-hi-hi. Ay qurd lələ, dalımca gəl. Qurd təəccüblə soruşdu:
- Nə var, ay dovşan qardaş?
- Sənin üçün bir yaxşı yem tapmışam. Hi-hi-hi. Aşağıda, dərədə bir kök quzu otlayır. Yanında da heç kəs yoxdur. Hə, tələs, yoxsa çoban gəlib aparar, ac qalarsan.
*Tərbiyəçi-müəllim:* - Uşaqlar, sizcə, dovşan niyə belə dedi? (Uşaqların cavabları dinlənilir və nağıl oxunuşu davam etdirilir).
Quzu adını eşidəndə qurdun ağzı sulandı. Ancaq dovşanın sözünə inanmadı.
- Yox, ay dovşan qardaş. Mən sənin sözünə inanmıram. Axı, bunun sənə nə xeyri var ki, qaçıb mənə xəbər verirsən?
Dovşan özünü itirməyib, cavab verdi:
- Hi-hi-hi, sən quzunu yeyəndən sonra dərisini atarsan. Mən də dərini aparıb balalarımın altına sərərəm. Onlar da yumşaq yerdə yatarlar.
- Yaxşı, tez ol, gedək quzunu mənə göstər.
Dovşan qurdu tələnin yanına gətirib, yavaşca dedi:
- Qurd qardaş, bax, quzu o ağacın yanındakı çəməndədir. Asta ol. Yoxsa quzu səni görüb qaçar. Qurd qulaqlarını şəklədi, gözlərini bərəltdi, dişlərini qıcırtdı. Yerə yatıb çəmənliyə sarı baxdı.
Sonra yenidən qalxıb pəncəsini atanda tələyə düşdü.
Ana dovşan tələdə çapalayan qurda dedi:
-Ay yaramaz, balamı yeyib, məni gözü yaşlı qoydun. İndi qoy sənin dərin ovçunun arvadı üçün xəz olsun.
İdman dəqiqəsi. Musiqi sədaları altında ritmik hərəkətlər. Suallar üzrə söhbət:
- Nağıl xoşunuza gəldi?
- Dovşanın balasını hansı heyvan yemişdi?
- Dovşan qurdu niyə tələyə salmaq istədi?
- Sizcə, dovşan düz etdi?

***Tətbiqetmə.***
Nağıl uşaqlar tərəfindən hissə-hissə söylənilir.
Tərbiyəçi-müəllim uşaqlara nağılın motivləri əsasında şəkil çəkməyi təklif edir. Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2. Savad təliminə hazırlıq və nitq inkişafı məşğələsi**
Standart:
2.2.4. Hərf və səsləri (səs təhlili üzrə iş, kəsmə əlifba vasitəsilə sözlərin düzülüb, oxunması) fərqləndirir.
2.2.5. Verilən səs üzrə sözləri seçir; səslərdən hecalar, hecalardan sözlər, sözlərdən cümlələr, cümlələrdən şifahi mətnlər qurur.
Mövzu: T - səsi və hərfi.
"Traktor" mövzusunda müsahibə.
Məqsəd:
- T səsini və hərfini fərqləndirir.
- T səsi ilə olan hecalar və sözlər söyləyir.
- Sözlərdən cümlələr qurur.
- Traktorun təyinatı haqqında danışır.
İnteqrasiya:
İd.in.2.3.1. Əşyalarla 10 dairəsində riyazi əməliyyatlar yerinə yetirir;
2.1.5. Tədqiqat zamanı yaranan problemlərin həlli yollarını müəyyən edir.
İş forması: Kollektiv, fərdi,.
İş üsulu: Əqli hücum, suallar, müzakirə, sujetli-rollu oyunlar.
Resurslar. Təhlil üçün sxemlər, traktor, televizor, top, telefon, at, ot şəkilləri, rəngli çöplər, təbaşir, dəftər, kəsmə əlifba, flaneloqraf.

**Məşğələnin gedişi**

***Motivasiya:*** Tərbiyəçi-müəllim yer şumlayan traktor tablosunu göstərir:
- Uşaqlar, şəkildə gördüyünüz maşın necə adlanır? O, nə edir? Traktor hərəkət edərkən səsini eşitmisiniz? Onun səsi necə olur? Uşaqların fikirləri dinlənilir.

***Dərketmə.***

1. T səsi və hərfi ilə tanışlıq.
   Fonematik gimnastika
   Qatar hərəkət edərkən necə səs çıxarır? (tak-tak-tak) Sözün əvvəlində hansı səsi eşidirsiniz? (Te)
2. Sözdə səsin yerinin müəyyən edilməsi.
   Traktor sözündə T səsinin ayrılması.
   Səsi tələffüz edin: Birinci hansı səsi eşidirsiniz? (Te)
3. Artikulyasiya.

Səsi bir daha tələffüz edək və bu zaman dodaqlarımızın vəziyyətinə diqqət edək.
Te səsinin olduğu sözləri və sözdə səsin yerini müəyyən etmək üçün avtobus, traktor, at, top, vedrə, ağac, dovşan şəkillərindən istifadə etmək.
T səsi olan sözlərin uşaqlar tərəfindən söylənilməsi.
T hərfinin çap formasının yazılışı üzrə iş.
T hərfinin say çöplərindən qurulması.

***İdman dəqiqəsi. Musiqi sədaları altında ritmik hərəkətlər.***

***Tətbiqetmə.***

Tərkibində T səsi olan söz söyləmək və sözdə səsin yerini müəyyənləşdirmək. ATA, AT sözlərini say çöpləri və nöqtələr üzrə qələmlə yazmaq.
Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**3. Riyazi və məntiqi təfəkkürün inkişafı məşğələsi**

Standart:
İd.in. 2.3.5. Oyun və tədqiqatlar zamanı obyekt və hadisələri öyrənmək üçün elementar ölçü alətlərindən (tərəzi, maqnit, böyüdücü şüşə, xətkeş və s.) tətbiq edir.
Mövzu: Əşyanın uzunluğu. (Xətkeşdən istifadə).
Məqsəd:

- Əşyaları uzunluğuna görə müqayisə edir.
- Uzunluğu ölçmək üçün xətkeşdən istifadə edir;

İnteqrasiya:
S.e.in. 3.2.2. Əmək prosesində istifadə edilən alətləri adlandırır, parça və iynə-sapla (plasmas iynələr) sadə bacarıqlar nümayiş etdirir.
İş üsulu: Əqli hücum, müzakirə, suallar,oyun.
İş forması: Fərdi, kollektiv.
Resurslar: Ağ vərəqlər, şəkillər, rəngli karandaşlar.

**Məşğələnin gedişi**

***Aktuallaşdırma***.

Tərbiyəçi-müəllim müxtəlif uzunluqda olan 2 karandaşı uşaqlara göstərib soruşur:
- Bu karandaşların fərqi nədir?
- Otaqda hansı əşyalar uzun, hansı əşyalar qısadır?
- İnsanlar boylarının uzunluqlarını nə ilə ölçürlər?
- Bəs biz boyumuzu necə ölçə bilərik?

Uşaqların fikirləri dinlənilir və yeni mövzuya keçilir.

***Dərketmə***.

Tərbiyəçi-müəllim uşaqlara müxtəlif uzunluqda iplər verərək, onların hansının daha uzun olduğunu ölçməyi tapşırır. Uşaqlar ipləri bir-birinin üzərinə qoyaraq ən uzun ipin hansı olduğunu müəyyənləşdirirlər.
Tərbiyəçi-müəllim məşğələni uşaqlar üçün yeni məlumatla davam etdirir:

- Qədim zamanlarda insanlar məsafəni ölçmək üçün addımdan, parçanı ölçmək üçün qoldan, əldən istifadə edirdilər. Tərbiyəçi-müəllim qrupda əyani şəkildə uşaqların iştirakı ilə bəzi qeyri- standart ölçmə işlərini göstərir. Sonra isə uşaqlar uzunluğu ölçmək üçün müxtəlif formalı xətkeşlərlə və ondan istifadə ilə tanış olurlar. Tapşırıqlar yerinə yetirilir.
***İdman dəqiqəsi. Musiqi sədaları altında ritmik hərəkətlər.***
***Tətbiqetmə*.**
Tərbiyəçi-müəllim oyun keçirir. Uşaqlar stolun, yazı taxtasının uzunluğunu əllə (qarışla), otağın uzunluğunu addımları ilə ölçürlər.
Tərbiyəçi-müəllim məşğələni ümumiləşdirərək yekunlaşdırır.

**4. Fiziki mədəniyyət məşğələsi**
Standart:
F.in.[5] 1.1.1. Fiziki inkişafla bağlı müəyyən olunmuş müxtəlif hərəkətləri (qaməti düz saxlamaqla istiqaməti və tempi dəyişərək yeriş və qaçış. (çeviklik, elastiklik, sürət, güc) nümayiş etdirir.
Mövzu: Daxili orqanlarımız.
Məqsəd:
- İlanvari yeriş nümayiş etdirir;
- Hərəkətlərini koordinasiya edir;
- Hərəkətlərində cəldlik və çeviklik nümayiş etdirir.
İnteqrasiya:
St. S.e. in.[6] 4.2.1.; 4.2.2.
İş üsulları: Müzakirə, süjetli-rollu oyunlar.
İş forması: Kollektiv, qruplarla və fərdi iş.
Resurslar: Skamya, ürək və qan damarları təsvir olunmuş plakat. 40 sm hündürlükdə kub, 50 sm hündürlükdə qövs.

**Məşğələnin gedişi**

**I. İsinmə hərəkətləri** (5 dəq.)
- adi, əllər yuxarıda pəncələr üstə və əllər arxada dabanlar üzərində yeriş;
- qolları dirsəkdən bükmək, irəli-geri hərəkət etdirərək dizləri hündürə qaldırmaqla yeriş;
- yumruqları açıb-bükərək, "ürək döyünür" imitasiya etməklə pəncə və daban üstə yeriş;
- əlləri asta-asta açıb-bükməklə sakit yeriş (4– 5 dəfə).

**II. Ümuminkişafetdirici hərəkətlər** (20 dəq.)
**1. "Bizim bədənimiz"** (5-6 dəfə təkrar etmək).
*Tərbiyəçi-müəllim:*- Uşaqlar, əl-ələ tutaraq, dairədə dayanaq. Biz indi sizinlə birlikdə böyük bədənik. Bu bədən yatır, istirahət edir, nəfəs alır. İndi bir addım geri çəkilirik (*dairə genişləndi*) – nəfəs alırıq... İndi nəfəsi veririk (*bir addım irəli gəlirlər*). Yenə nəfəsalma... Nəfəsvermə.... (*tapşırıq sakit tempdə yerinə yetirilir*) İndi bədənimizi oyatmamaq üçün sakitcə öz yerimizə keçək.

**2. "Ürəyimiz işləyir".**
*ç.v*[7]. – düz dayanmaq, əllər aşağıda.
*1 sayında* qollar yanlara;
*2 sayında* qollar yuxarı.
*3 sayında* qollar irəli;
*4 sayında* ç.v.-nə qayıtmaq.

**3. "Bir-birimizə baxaq, başımızı döndərək".**
*ç.v.* – Düz dayanmaq, əllər aşağıda;
*1 sayında* başı sola döndərmək;
*2 sayında* ç.v.-ni almaq.

5. Fiziki inkişaf
6. Standart sosial-emosional inkişaf
7. Çıxış vəziyyəti

*3 sayında* başı sağa döndərmək;
*4 sayında* ç.v.-nə qayıtmaq.

**4. "Qollarımızı işlədərək ürəyimizə kömək edək"**
*ç.v.* – düz dayanmaq, əllər sinə qarşısında;
*1 sayında* qolları irəli-geri hərəkət etdirməklə sola tərəf dönmək və qolları yanlara tərəf açmaq;
*2 sayında* ç.v.-ni almaq;
*3 sayında* qolları irəli-geri hərəkət etdirməklə sağa tərəf dönmək və qolları yanlara tərəf açmaq;
*4 sayında* ç.v.-nə qayıtmaq.

**5. "Biləklərimizi fırladaq"**
*ç.v.* – Dizlər üstə dayanmaq, qollar yanlara;
*1 sayında* biləkləri irəliyə doğru fırlamaq;
*2 sayında* ç.v.-ni almaq;
*3 sayında* biləkləri irəliyə doğru fırlamaq;
*4 sayında* ç.v.-nə qayıtmaq.

**6. "Ürəkdən qan damarlarına səyahət"**
*ç.v.* – düz dayanmaq, əllər yanlarda.
*1 sayında qaçaraq* 40 *sm* hündürlükdə kubun üzərindən tullanmaq;
*2 sayında* ç.v.-ni almaq.
*3 sayında* qollar yanlarda skamyanın üzəri ilə yerimək;
*4 sayında* ç.v.-nə qayıtmaq.

**Əsas hərəkətlər.**

**Hərəkətli oyun: "Qan damarları"**

*Tərbiyəçi-müəllim:* - "Bizim ürəyimiz nasosa oxşayır. O, qanı damarlara vuraraq, bütün bədənə yayır. O, da çay kimidir. Çünki qan həm ürəkdən çıxır, həm də ürəyə tökülür. Biz hərəkət etdikcə, ürək daha bərkdən döyünür".

Uşaqlar 2 komandaya bölünürlər. Komandaların qarşısında qövsdən "tunel" düzəldilir. Onun qarşısında içərisində kiçik şarlar olan qutular qoyulur: qırmızı şarlar – orqanizm üçün faydalı olan maddələr, göy rəngli şarlar isə zərərli maddələrdir. Siqnal üzrə komanda üzvləri növbə ilə uyğun rəngli bir şar götürüb komanda yoldaşlarının yanına qaçırlar. Oyunu tez qurtaran komanda qalib gəlir.

**III. Sakitləşdirici hərəkətlər** (5 dəq.)
***"Nəbzi tap"***
*ç.v.* – düz dayanmaq, əllər yanlarda.
*1 sayında* nəfəsalma – sağ əllə sol əldə nəbzi tutmaq.
*2 sayında* nəfəsvermə– ç.v.-nə qayıtmaq.
*3 sayında* nəfəsalma – sol əli ilə sağ əldə nəbzi tutmaq.
*4 sayında* nəfəsvermə – ç.v.-nə qayıtmaq.
Tərbiyəçi-müəllimin ardınca bir cərgədə sakit yeriş.

## 3.3. Ailələrlə əməkdaşlığın təşkili məsələləri

Hər bir uşaq bağçasında valideynlərlə qarşılıqlı əlaqə prioritet sahələrdən biridir, çünki təhsil xidmətlərinin sosial sifarişçiləri məhz valideynlərdir.

Müasir ailənin reallıqlarını, valideynlərin məşğulluğunu, ənənəvi tədbirlərə marağın az olması səbəbindən onların iştirakını nəzərə alaraq, valideynlərin fəallaşmasının müxtəlif formalarını, üsullarını daim axtarmaq lazımdır. Bu forma və üsulların əsas məqsədi valideynlərin pedaqoji cəhətdən maarifləndirilməsi və onların təhsil prosesinə cəlb edilməsidir.

Məktəbəqədər təhsil müəssisəsinin fəaliyyəti uşaq bağçası ilə ailə arasında qarşılıqlı əlaqəni və münasibətlərin tənzimlənməsini təmin etməyə yönəldilməlidir ki, bu da pedaqoji ictimaiyyətin peşəkar (tərbiyəçi-müəllimlər) və qeyri-peşəkar (valideynlər) hissəsi arasında münaqişələrin qarşısını almağa imkan verir.

Ailə sosial-tarixi təcrübənin uşağa ötürülməsində, hər şeydən əvvəl insanlar arasında emosional və işgüzar münasibətlərin mənbəyi və mühüm həlqəsidir. Bunu nəzərə alaraq, haqlı olaraq hesab edə bilərik ki, ailə uşağın tərbiyəsi və sosiallaşması üçün ən mühüm institutdur.

Erkən və məktəbəqədər təhsil dövründə ailələr uşaqların gözlənilən təlim nəticələri haqqında müəyyən məlumata malik olmalıdırlar. Uşaqların əlverişli təlim nəticələrinə nail olunmasına təminat verilməsi məqsədilə məktəbəqədər təhsil müəssisəsi və ailələr əməkdaşlıq şəraitində işləməlidirlər. Məktəbəqədər təhsil müəssisəsi ilə ailənin qarşılıqlı fəaliyyətinin əsas məqsədi uşaqların şəxsiyyətyönümlü inkişafını təmin edən zəruri şəraitin yaradılması, təlim-tərbiyə sahəsində valideynlərin səriştəliliyinin artırılmasıdır.

Uşağın ilk tərbiyəçisi kimi ailənin rolu erkən yaş dövründə ailə və məktəbəqədər təhsil müəssisəsi arasında tərəfdaşlıq münasibətlərinin qurulmasında mühüm faktordur. Tərəfdaşlıq və məsuliyyət uşaqların təhsili ilə bağlı qərarların qəbul edilməsində etimad və hörmət, bərabər hüququ nəzərdə tutur. Məktəbəqədər təhsil müəssisələrində çalışan pedaqoji işçilərlə ailə arasında təlim-tərbiyə prosesinin ardıcıllığını və tamlığını təmin edə biləcək tərəfdaşlıq münasibətlərinin qurulması zəruridir.

Valideynlər məktəbəqədər təhsil müəssisəsinin simasında dəstək əldə etməlidir ki, özlərini tərbiyəçi-müəllimlərlə əməkdaşlıq prosesində görə bilsinlər, həmçinin uşaqların iştirakı ilə keçirilən fəaliyyət növlərində iştirak etsinlər. Ailələri öz uşağının təliminə cəlb etmək üçün hər bir tərbiyəçi-müəllim səmərəli strategiyalar qura bilər:

- Uşağın inkişafı və təlimi barədə ailələrlə müzakirələr təşkil etməli, ideyalarını valideynlərlə bölüşməli, onlarda uşaqlarının təliminə maraq oyatmalıdır;
- Hər bir ailənin dəyərlərinə hörmətlə yanaşmalıdır. Bunun üçün ailələrin sosial statusu və mədəniyyətində mövcud olan fərqlərin anlaşılması vərdişlərinə malik olmalıdır. Belə münasibətlər vasitəsilə uşaqların təhsili üçün daha təhlükəsiz və sağlam mühit yaratmalıdır.

### Valideynlərlə qarşılıqlı əlaqə formaları və üsulları

İş təcrübəsinin həyata keçirilməsi prosesində aşağıdakı əməkdaşlıq üsul və formalarından istifadə edilməsi məqsədəuyğundur.

***Ən populyar əməkdaşlıq formaları:***

- “dəyirmi masa”, müzakirə görüşü;
- valideyn konfransı;
- məsləhət;
- sual-cavab axşamı;
- pedaqoji “qonaq otağı”;

- öyrədici oyun təlimi;
- tematik fəaliyyətlər;
- vizual ünsiyyət vasitələri (tematik sərgilər, sual və cavablar üçün poçt qutusu və s.);
- telefon görüşmələri;
- açıq qapı günləri;
- ailə həftəsonu marşrutları;
- məktəbəqədər təhsil müəssisələrinə getməyən uşaqların valideynləri üçün məsləhət məntəqələri (struktur bölmə kimi).

***Valideynləri aktivləşdirmə üsulları:***

- sorğu, test, müsahibə;
- müzakirə sualları;
- təşkil edilmiş təlim fəaliyyətinə açıq baxışlar;
- uşaq yaradıcılığının nəticələrinin təhlili;
- videomateriallara baxmaq və s.

Aktiv metodlardan istifadə təkcə pedaqoji erudisiyanın artmasına kömək etməklə bərabər, həm də valideynləri özünüdərketməyə və özünü göstərməyə stimullaşdırır.

***Tərbiyəçi-müəllimlərə tövsiyə***

*Müsbət ünsiyyət bacarıqlarından istifadə*

- Uşağın valideynlərinə göstəriş və nəsihət verməkdən daha çox onları dinləyin və zəruri bildiyiniz məsələlər barədə danışın.
- Valideynlərə övladının inkişafındakı irəliləyişlər və nailiyyətlər barədə tez-tez həm şifahi, həm də yazılı məlumat verin.
- Ailələri məlumatlandırmaq və onlardan məlumat almaq üçün fərdi formalardan istifadə edin.
- Valideynlərin uşaqları ilə bağlı məsələləri onlarla müzakirə etməyə hazır olduğunuzu başa düşmələrini təmin edin.
- Valideynlərə təhsil proqramının məqsəd və vəzifələrini söyləməzdən əvvəl onlardan nə istədiklərini soruşun.
- Valideynlərin təklif, ideya və istəklərinə vaxtında cavab verin.
- Ailələrlə uşaqlarla bağlı qərarlar qəbul edərkən problemləri həll etməyə çalışın.
- Valideynləri uşaqların təlim və tərbiyə prosesində iştiraka cəlb edin.
- Valideynlərə övladının təhsilində nə vaxt, harada və necə iştirak edəcəklərini seçmək hüququnu verin.
- Mütəmadi olaraq valideynlərdən seçilmiş strategiyaların effektivliyi, proqramın nəticələri və onların etmək istədikləri dəyişikliklər barədə soruşun.

*Uşağın və ailənin müsbət xüsusiyyətlərinin, güclü tərəflərinin müəyyən edilməsi və istifadəsi*

- Valideynlərə uşağın xarakterinin güclü tərəfləri, nailiyyətləri və müsbət cəhətləri barədə məlumat verin.
- Valideynlərdən övladının gələcəyi ilə bağlı uzunmüddətli məqsədlər, ümidlər və istəklər haqqında məlumat alın.
- Valideynləri övladlarının nailiyyətlərinə misilsiz töhfələrinə görə təşəkkür edin.
- Valideynləri uşağın güclü olduğu sahələrdə məqsəd və hərəkətlərini formalaşdırmağa dəvət edin və onların təkliflərini inkişaf planına daxil etməyə çalışın.
- Valideynlərə uşaqlarının həyatına əhəmiyyətli dərəcədə müsbət təsir göstərə biləcəklərini başa düşmələrinə kömək edin.
- Ailələrin müxtəlifliyinə və unikallığına hörmət edin.
- Valideynlərin fikirlərini və hisslərini, hətta sizin fikirlərinizə uyğun gəlməsə belə, qəbul edin və onlara hörmətlə yanaşın.
- Ailələrin mədəni dəyərlər haqqında anlayışlarını inkişaf etdirməyə çalışın.
- Ailələrin dəyərləri sizinkilərlə zidd olsa belə, onlara tolerant yanaşın.

Bütün ailə üzvlərinə qrup fəaliyyətlərində fəal iştirak etmək imkanı verin, valideynlərin eyni zamanda özlərini rahat hiss etmələrini təmin edin. Valideynlərə qrupda fəaliyyətin aparılması ilə bağlı qərarların qəbul edilməsində iştirak etmək imkanı verin. Valideynləri uşaqların təliminə cəlb edin, onların özlərini rahat hiss etmələrinə imkan verəcək formalardan istifadə edin. Valideynləri günün istənilən vaxtında qrupda və uşaq bağçasında qəbul etməyə hazır olun.



# 4. Uşaq inkişafının dəyərləndirilməsi

Müasir dövrdə təhsilin keyfiyyətinin idarəolunması, inkişaf dinamikasının izlənilməsi və proqnozlaşdırılması üçün real vəziyyətin öyrənilməsi vacibdir. Bu işdə dəyərləndirmə mühüm pedaqoji vasitədir. Dəyərləndirmə təlim-tərbiyə prosesini təkmilləşdirməyə, təlim prosesinin səmərəliliyini yüksəltməyə, uşağın inkişafını, nəyi mənimsədiyini, nəyi öyrəndiyini və bacardığını, onda hansı keyfiyyət dəyişikliklərinin formalaşdığını müəyyənləşdirməyə obyektiv şərait yaradır.

Uşaq inkişafının dəyərləndirilməsi onun inkişafı və təlimi haqqında ailəni məlumatlandırmaq, müəssisədəki inkişafetdirici mühiti davamlı şəkildə qiymətləndirmək və təhsilalanın bilik, bacarıq və vərdişlərini dəyərləndirmək məqsədilə aparılır. İnkişafın dəyərləndirilməsi hər bir uşağa fərdi qaydada tətbiq edilir, onun nitq, hissi, böyük və kiçik motor bacarıqlarında inkişaf səviyyələrini, yaxud inkişaf ləngimələrini, görmə və eşitmə ilə bağlı problemlərini müəyyənləşdirmək üçün istifadə edilir.

Dəyərləndirmənin nəticələri uşaqların həm yüksək, həm də aşağı səviyyədə olan bacarıqlarını müəyyənləşdirir. Bunun nəticəsində faydalı fərdi təlim planlaşdırılır və həyata keçirilir.

## 4.1. Dəyərləndirmənin metod və vasitələri

**Dəyərləndirmə** məlumatların təhlili və nəticələrin çıxarılması prosesidir.

Dəyərləndirmə uşağın inkişafı, nailiyyətləri və xüsusi ehtiyacları haqqında məlumatın toplanması və təlim prosesində nailiyyətlərin müəyyən olunmuş keyfiyyət səviyyəsinə uyğunluğunun obyektiv, etibarlı vasitələrlə ölçülməsidir.

Dəyərləndirmə zamanı aşağıdakı metodlardan istifadə olunur:

• ***Müşahidə*** - *diaqnostika məqsədilə aparılır və davamlı qiymətləndirmə vasitəsi kimi çıxış edir.* Bu metoddan istifadə zamanı tərbiyəçi-müəllimlər uşağın fəaliyyətini fasiləsiz izləyir, qeydlər aparır, onun irəliləyişləri haqqında məlumatı valideynlərinə təqdim edir. Müşahidələrin qeydə alınması obyektiv məlumatın toplanmasından ibarətdir. Müşahidə uşağın fəaliyyətinə mane olmadan onu izləmək prosesidir. Uşağın gündəlik fəaliyyətlərini izlədikcə, tərbiyəçi-müəllim onun vərdişlərə yiyələnməsi, maraqları və ümumi inkişafı haqqında məlumat toplamış olur. Bu metod uşağın fərdi xüsusiyyətləri, ehtiyacları, qabiliyyətləri və maraqları haqqında məlumat toplamağa imkan verir.

Müşahidələr *gündəlik və dövri* olmaqla iki formada aparılır:

- *gündəlik müşahidə* - tərbiyəçi-müəllim tərəfindən gündəlik aparılır. Alınan nəticələr ilkin məlumatlar formasında toplanır.
- *dövri müşahidə* - uşağın oyun, təlim və əmək fəaliyyəti zamanı aparılır. Bu müşahidə vasitəsilə uşağın fəaliyyəti ardıcıl öyrənilir, nəticələrə görə cədvəllər doldurulur. Müşahidə, əsasən, uşağın maraqları və xüsusi diqqəti cəlb edən məqamlarını aşkar edir.

Məktəbəqədər yaşlı uşaqların oyun və digər fəaliyyət növləri zamanı tərbiyəçi- müəllimin müşahidələri yazılı formada qeydə alınır. Qeydlər sərbəst və təyin edilmiş müəyyən vaxtda aparıla bilər. Tərbiyəçi-müəllimin müşahidələri qeydləri ilə birlikdə uşağın konkret nə etdiyinə əsaslanır. Qeydlər obyektiv olmalı, buraya heç bir rəy, mühakimə və şərhlər daxil edilməməlidir.

• ***Müsahibə*** - tərbiyəçi-müəllim uşaqlarla müsahibəni söhbət formasında aparır. O, həmçinin bu üsuldan uşaqların dəyərləndirmə göstəricilərini müəyyənləşdirmək məqsədilə valideynlərlə aparılan iş zamanı da istifadə edir. Bu üsul uşaq haqqında ilkin məlumatın toplanması üçün aparılır.

• ***Şifahi sorğu*** - söhbət və oyunlar formasında keçirilir. Sorğu tərbiyəçi-müəllimə uşağın əşyalar, hadisələr, onların xüsusiyyətləri haqqında mənimsədiyi biliklərin, bacarıqların formalaşma səviyyəsini və fəaliyyətlərdə tətbiqetmə bacarığını yoxlamağa imkan verir.

• ***Fəaliyyət məhsullarının təhlili*** - uşaq məhsuldar fəaliyyətin (rəsm, yapma, quraşdırma, kəsib-yapışdırma və s.) nəticələrinə görə qiymətləndirilir. Bu qiymətləndirmənin obyektiv aparılması üçün həmin sahələr üzrə normalar müəyyənləşdirilir.

**Portfolio** - (ingilis dilindən tərcümədə portfel, mühüm sənədlər üçün qovluq) - uşağın əl işləri, fikirləşib söylədiyi hekayələr, təsviri fəaliyyət məşğələlərinin nəticələri, müxtəlif fəaliyyətlərlə məşğul olarkən çəkilmiş fotoşəkillərin saxlanıldığı qovluqdur. Bunlar hamısı uşağın fəaliyyətinin məhsuludur və onların saxlandığı qovluq portfolio adlanır.

Portfoliodan istifadə edərkən uşaqlara dair məlumatlar təhlil, şərh edilir və dəyərləndirilir. Məqsəd həmin fəaliyyət nümunələrini saxlamaq deyil, onları təhlil etməkdir. Bu iş nümunələri valideynlərə öz uşaqlarının nailiyyətlərini görməyə imkan yaradır. Portfolio tərbiyəçi-müəllimlərə uşaqların inkişaf və nailiyyətlərinin dəyərləndirilmələrinə dair qərar verməkdə bələdçilik edir. Məktəbəqədər yaşlı uşaqların portfoliosu uşağın ayrı-ayrı nailiyyətlərinin adekvat təqdim edilməsi, həmçinin onun sosial, emosional, idraki inkişaf kimi fəaliyyət sahələri üzrə əldə edilən nəticələrinin nəzərə alınmasına görə effektiv dəyərləndirmə formasıdır.

Beləliklə, məktəbəqədər təhsil müəssisələrində portfolionu uşağın imkan və bacarıqlarının, fərdi keyfiyyətlərinin inkişaf səviyyəsinin kompleks dəyərləndirilməsi, "inkişaf trayektoriyası"nın qurulması üçün fərdi nailiyyətlərin təhlilinin vasitəsi kimi müəyyən etmək olar.

Portfolioya aşağıdakılar daxildir:

- ***təsviri və ya gündəlik qeydlər;***
- ***iş nümunələri;***
- ***ailə məlumatları;***
- ***inkişaf səviyyəsi cədvəlləri;***
- ***inkişafa dair yekun hesabat.***

***Təsviri və ya gündəlik qeydlər*** - uşaqların fərdi və ya qrup şəklində fəaliyyətləri haqqında günün sonunda təəssüratların qeyd olunmasıdır. Qeydlər subyektiv xarakter daşıyır və gün ərzində uşaqların nailiyyətlərini və uğursuzluqlarını izləməkdə faydalı ola bilər.

***İş nümunələri*** - uşaq tərbiyəçi-müəllim tərəfindən əvvəlcədən müəyyənləşdirilmiş xüsusi tapşırığı yerinə yetirir. Tapşırıq rəsm, kəsib-yapışdırma, yarımçıq işi tamamlamaq, quraşdırma, yapma, əşyalarla oyun və s. ibarət ola bilər. Bu nümunələr uşağın il ərzində inkişaf dinamikasını izləməyə imkan verir.

***Ailənin məlumatları*** - tərbiyəçi-müəllimlər və valideynlər uşaqların təlim-tərbiyəsi işində daim əməkdaşlıq edirlər. Bu əməkdaşlığın mühüm bir cəhəti kimi ailənin uşaq haqqında məlumat verməsidir. Tərbiyəçi-müəllimlər sorğudan istifadə etməklə uşaq haqqında məlumat toplayır.

***İnkişaf səviyyəsi cədvəlləri*** - hər yaş dövrünün sonunda uşağın inkişaf səviyyələri müəyyən olunur. Uşağın yaş və inkişaf səviyyələrinin müəyyənləşdirilməsi və dəyərləndirmənin mütəmadi aparılması onun fərdi maraqlarına, öyrənmə üsullarına və bacarıqlarına cavab verən müvafiq təlim strategiyalarının planlaşdırılması üçün əsas hesab edilir. Bu dəyərləndirmə sistemi təlim strategiyaları vasitəsilə tərbiyəçi-müəllimlərin hansı cəhətə diqqət yetirmələrinə və uşağın davamlı inkişaf və təliminə dəstək olmaqda köməklik göstərəcəkdir.

Məzmun standartlarındakı nəticələr təlim prosesində nəzərə alınmalı, dəyərləndirmə zamanı uşaqların təlim nəticələri üzrə nailiyyətlərinə xüsusi diqqət yetirilməlidir.

***İnkişafa dair yekun hesabat*** məktəbəqədər yaş dövründə 2 dəfə - 3 yaşın və məktəbəqədər təhsilin sonunda uşaq inkişafının qiymətləndirilməsi məqsədilə hazırlanır. Yekun hesabatda məktəbəqədər təhsilin sonunda uşağın inkişafının səviyyəsi müəyyən edilir. Uşaq bu hesabatla növbəti mərhələyə qədəm qoyur. Lakin uşaqların ümumi təhsil müəssisəsinə qəbulu zamanı onların inkişafına dair yekun hesabatın nəticələri əsas götürülmür.

## 4.2. Dəyərləndirmənin aparılmasına verilən tələblər

Obyektiv aparılmış dəyərləndirmə hər şeydən əvvəl real vəziyyətin aşkara çıxarılmasında mühüm vasitədir. Məhz real vəziyyətin təhlili nəticəsində çatışmazlıqlar müəyyən edilir, onların aradan qaldırılması yolları müəyyənləşdirilir və gələcək üçün proqnazlaşdırma aparılır.

Dəyərləndirmə, uşağın inkişafı ilə elə əlaqələndirilməlidir ki, onun nailiyyətlərinə dair tam və əhatəli cavab almaq mümkün olsun.

Düzgün və hərtərəfli dəyərləndirmə:

- *hər bir uşağın çatışmayan cəhətlərinə deyil, potensial imkanlarına yönəldilməlidir;*
- *çoxölçülü, yəni hərtərəfli olmalı, sosial və emosional inkişafa da idraki inkişaf qədər yer ayrılmalıdır;*
- *tərbiyəçi-müəllim-valideyn, habelə tərbiyəçi-müəllim-uşaq arasında fəal əməkdaşlığa nail olmalıdır;*
- *uşaqların uğur qazanmalarına və təhsilin optimallığına şərait yaratmalıdır;*
- *tərbiyəçi-müəllimlərin planlaşdırdıqları məşğələlərin və tətbiq etdikləri təlim strategiyalarının təcrübədə nə dərəcədə səmərəli olduğunu müəyyən etməyə, habelə məktəbəqədər yaşlı uşaqların nəzərdə tutulan təlim nəticələrinə nail olmalarını təmin etmək üçün lazım olan dəyişiklikləri həyata keçirməyə imkan yaratmalıdır;*
- *uşaqda mənfi hisslər oyatmadan, onun özünəinamını və irəli getmək səylərini möhkəmləndirərək müsbət emosional şəraitdə aparılmalıdır;*
- *uşağın təlim fəaliyyətinə dair toplanmış dəlillərə əsasən vaxtaşırı aparılmalıdır;*
- *hər bir uşağın ehtiyaclarına, öyrənmə və inkişafına həssaslıqla yanaşmanı əks etdirməlidir.*

Dəyərləndirmə zamanı aşağıdakı prinsiplər rəhbər tutulmalıdır:

- *məktəbəqədər yaşlı uşaqların bacarıqlarının dəyərləndirilməsi*
- *uşağın başqaları ilə deyil, özü ilə müqayisə edilməsi*
- *uşağın bütövlükdə götürülməsi və ya uşağa hərtərəfli yanaşılması.*



# Uşaq inkişafının izlənilməsi üçün nümunəvi cədvəllər

İnkişaf sahəsi: Fiziki inkişaf, sağlamlıq və təhlükəsizlik.

***1-2 yaş***

| Meyarlar | I rüb | | | II rüb | | | III rüb | | | IV rüb | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Yerinə yetirir | Qismən yerinə yetirir | Yerinə yetirmir | Yerinə yetirir | Qismən yerinə yetirir | Yerinə yetirmir | Yerinə yetirir | Qismən yerinə yetirir | Yerinə yetirmir | Yerinə yetirir | Qismən yerinə yetirir | Yerinə yetirmir |
| Sərbəst yeriyir, 3-4 metr məsafəyə qaçır. | | | | | | | | | | | | |
| Maneələrdən yan keçir. | | | | | | | | | | | | |
| Böyüklərin köməyi ilə pilləkənlə düşür və qalxır. | | | | | | | | | | | | |
| Topu döşəmə üzərində diyirlədir. | | | | | | | | | | | | |
| Əlində tutduğu əşyalardan (karandaş, top, oyuncaq) təyinatına görə istifadə edir. | | | | | | | | | | | | |
| Şəxsi gigiyena əşyalarını (daraq, dəsmal və s.) tanıdığını nümayiş etdirir. | | | | | | | | | | | | |
| Qaşıqdan istifadə edir. | | | | | | | | | | | | |
| Fincanı iki əli ilə tutaraq suyu içir. | | | | | | | | | | | | |
| Böyüklərin nəzarəti altında əllərini sabunla yuyur. | | | | | | | | | | | | |

| | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Burun dəsmalından istifadə edir. | | | | | | | | | | | | |
| Elementar təhlükəsizlik qaydalarına (qaynar əşyalara, sobaya əl vurmamaq) əməl edir. | | | | | | | | | | | | |

Qeyd: Əgər uşaq tapşırığı dəstəklə yerinə yetirirsə, bu qismən sayılır.

*2-3 yaş*

| Meyarlar | I rüb | | | II rüb | | | III rüb | | | IV rüb | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Yerinə yetirir | Qismən yerinə yetirir | Yerinə yetirmir | Yerinə yetirir | Qismən yerinə yetirir | Yerinə yetirmir | Yerinə yetirir | Qismən yerinə yetirir | Yerinə yetirmir | Yerinə yetirir | Qismən yerinə yetirir | Yerinə yetirmir |
| Yeriş və qaçış hərəkətlərini icra edir. | | | | | | | | | | | | |
| Yerişdən qaçışa, qaçışdan yerişə keçir, müvazinətini saxlamaqla yeriyir. | | | | | | | | | | | | |
| Sürünmə, dırmanma hərəkətlərini icra edir. | | | | | | | | | | | | |
| Yerində atılıb-düşür (ayaqları bir yerdə), irəli doğru tullanır. | | | | | | | | | | | | |
| Topu bir-birinə tərəf atır, təpiklə vurur. | | | | | | | | | | | | |
| Əşyanı (karandaş, plastilin, top və oyuncaqları) barmaqları arasında saxlayaraq şəkil çəkmə, yapma, atıb- tutma kimi hərəkətləri sadə tərzdə yerinə yetirir. | | | | | | | | | | | | |
| İlkin gigiyena qaydalarına (daraq, dəsmal, burun dəsmalından (salfet) istifadə etmək və s.) əməl edir. | | | | | | | | | | | | |

| | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Masa arxasında davranışını ümumi qaydalara əsasən tənzimləyir. | | | | | | | | | | | | |
| Yemək dəstlərindən (qaşıqdan) istifadə edir, ağzını və əllərini salfetlə silir | | | | | | | | | | | | |
| Böyüklərin nəzarəti altında əllərini sabunla yuyur və qurulayır. | | | | | | | | | | | | |
| Təhlükəli situasiyalarda ehtiyatlılıq nümayiş etdirir. | | | | | | | | | | | | |

***3-4 yaş***

| Meyarlar | I rüb | | | II rüb | | | III rüb | | | IV rüb | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Yerinə yetirir | Qismən yerinə yetirir | Yerinə yetirmir | Yerinə yetirir | Qismən yerinə yetirir | Yerinə yetirmir | Yerinə yetirir | Qismən yerinə yetirir | Yerinə yetirmir | Yerinə yetirir | Qismən yerinə yetirir | Yerinə yetirmir |
| Müxtəlif istiqamətlərə yeriş və qaçış hərəkətlərini icra edir. | | | | | | | | | | | | |
| Fiziki hərəkətləri (dırmanma, gimnastik skamyanın üstü ilə sürünmək və kürəciyi bir-birinə tərəf diyirlətmək) yerinə yetirir. | | | | | | | | | | | | |
| 15 sm hündürlüyündə maneədən tullanaraq, iki ayağı üstə yerə düşür. | | | | | | | | | | | | |
| Topu başı üzərindən atır və yerdən sıçrayan topu tutur. | | | | | | | | | | | | |
| Kiçik motor hərəkətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutur, şəkil çəkir, yapışdırır, quraşdırır və s.) koordinasiya edir. | | | | | | | | | | | | |
| Sadə gigiyena qaydalarını mənimsədiyini nümayiş etdirir. | | | | | | | | | | | | |

| | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Sabundan düzgün istifadə edir, əlini, üzünü, qulağını yuyur və qurulayır. | | | | | | | | | | | | |
| Daraq, burun dəsmalı və ya salfetdən istifadə edir. | | | | | | | | | | | | |
| Masa arxasında yemək dəstindən müstəqil istifadə edir. | | | | | | | | | | | | |
| Sadə özünəxidmət bacarıqlarını (əllərini özü yuyur, soyunur, geyinir), fəaliyyətini ardıcıllıqla (ayaqqabının bağını açıb-bağlayır, paltarını düymələyir) yerinə yetirir. | | | | | | | | | | | | |
| Həyatına və sağlamlığına təhlükə yarada biləcək əşyaları əlamətlərinə (yandırıcı, kəsici, deşici) görə fərqləndirir. | | | | | | | | | | | | |
| Kəsici, deşici, yandırıcı əşyalar, elektrik cihazları və heyvanlar, tanış olmayan adamlarla ehtiyatla davranma qaydalarını bildiyini nümayiş etdirir. | | | | | | | | | | | | |

*4-5 yaş*

| Meyarlar | I rüb | | | II rüb | | | III rüb | | | IV rüb | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Yerinə yetirir | Qismən yerinə yetirir | Yerinə yetirmir | Yerinə yetirir | Qismən yerinə yetirir | Yerinə yetirmir | Yerinə yetirir | Qismən yerinə yetirir | Yerinə yetirmir | Yerinə yetirir | Qismən yerinə yetirir | Yerinə yetirmir |
| Fiziki hərəkətləri verilən komandaya uyğun yerinə yetirir. | | | | | | | | | | | | |
| Müxtəlif istiqamətlərə yeriyir və qaçır. | | | | | | | | | | | | |
| Müxtəlif əşyaların üstü və arası ilə sürünür, gimnastika nərdivanına dırmanır. | | | | | | | | | | | | |
| Müxtəlif hərəkətləri yerinə yetirərkən müvazinətini saxlayır. | | | | | | | | | | | | |
| İrəliyə doğru tullanır. | | | | | | | | | | | | |
| Topu, kürəciyi müxtəlif üsullarla atıb-tutur. | | | | | | | | | | | | |
| Kiçik motor hərəkətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutur, şəkil çəkir, düzür, hamarlayır, kəsir, yapışdırır, quraşdırır, hissələri ayırır və birləşdirir və s.) koordinasiya edir. | | | | | | | | | | | | |
| Müəyyən olunmuş gigiyena qaydalarına əməl edir. | | | | | | | | | | | | |

| | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Çəngəldən sərbəst istifadə edir, səliqəli yemək yeyir. | | | | | | | | | | | | |
| Xarici görünüşünü səliqəyə salır, asqırıb, öskürərkən üzünü çevirib, ağzını və burnunu dəsmalla tutur. | | | | | | | | | | | | |
| Yeməkdən əvvəl və sonra əllərini sabunla yuyur və qurulayır, yeməkdən sonra ağzını yaxalayır. | | | | | | | | | | | | |
| Özünəxidmət vərdişlərini (səliqə ilə tez soyunub-geyinir, paltarlarını səliqə ilə dolaba yığır, yatağını səliqəyə salır) yerinə yetirir. | | | | | | | | | | | | |
| Həyatına və sağlamlığına təhlükə yarada biləcək əşyalarla təhlükəsiz davranma bacarıqları nümayiş etdirir. | | | | | | | | | | | | |

| | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Təhlükəsizlik qaydalarını (kəsici, deşici, yandırıcı əşyalar, sobalar və elektrik cihazları ilə ehtiyatlı davranmaq; böyüklərin nəzarəti olmadan dərman qəbul etməmək; yol hərəkəti qaydalarına riayət etmək; kimyəvi maddələrlə ehtiyatla davranmaq; fövqəladə hadisə və təbii fəlakətlər zamanı çıxış yolu tapmaq) (yanğınlar, zəlzələlər və s.) situasiyaya uyğun izah edir. | | | | | | | | | | | | |

*5-6 yaş*

| Meyarlar | I rüb | | | II rüb | | | III rüb | | | IV rüb | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Yerinə yetirir | Qismən yerinə yetirir | Yerinə yetirmir | Yerinə yetirir | Qismən yerinə yetirir | Yerinə yetirmir | Yerinə yetirir | Qismən yerinə yetirir | Yerinə yetirmir | Yerinə yetirir | Qismən yerinə yetirir | Yerinə yetirmir |
| Qaməti düz saxlamaqla istiqaməti və tempi dəyişərək yeriyir və qaçır. | | | | | | | | | | | | |
| Müxtəlif əşyaların üstü, altı və arası ilə sürünmə hərəkətləri yerinə yetirir. | | | | | | | | | | | | |
| Məhdudlaşmış sədd üzərində müvazinəti saxlamaqla yeriş və qaçış, gimnastika nərdivanına pillə-pillə dırmanma hərəkətləri yerinə yetirir. | | | | | | | | | | | | |
| Kürəciyi diyirlədir, qum kisəciyini və topu hədəfə atır. | | | | | | | | | | | | |
| Yerində, uzununa, müxtəlif istiqamətlərə doğru və ip üzərindən tullanır. | | | | | | | | | | | | |
| Topu yerə vuraraq irəliləyir. | | | | | | | | | | | | |
| Kiçik motor hərəkətlərini (şəkil çəkir, konturdan kənara çıxmayaraq rəngləyir, verilmiş materialı və ya əşyanı hissələrə ayırır və birləşdirir, kontur üzrə kəsir, yapışdırır, quraş- dırır, düzür və s.) koordinasiya edir. | | | | | | | | | | | | |

| | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Gigiyena qaydalarını özünənə- zarət (ehtiyac olduqda əllərini sabunla yuyur və qurulayır) əsasında nümayiş etdirir. | | | | | | | | | | | | |
| Öz şəxsi daraq, burun dəsmalı və salfetindən istifadə edir. | | | | | | | | | | | | |
| Masa arxasında süfrə mədəniyyətinə yiyələndiyini nümayiş etdirir. | | | | | | | | | | | | |
| Sərbəst şəkildə özünəxid- mət vərdişləri (paltarlarını səliqə ilə yığır; müstəqil şəkildə xarici görkə- mində olan səliqəsizliyi aşkar edib və onu aradan qaldırır və s. ) nümayiş etdirir. | | | | | | | | | | | | |
| Həyatına və sağlamlığına təhlükə yarada biləcək hadisələrdən qorunma qaydalarını izah edir. | | | | | | | | | | | | |

| | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Təhlükəsizlik qaydalarına (həşərat, bitki və əşyalar, fövqəladə hadisələr və təbii fəlakətlər (yanğınlar, zəlzələlər, daşqınlar, sel və sürüşmələr) zamanı situasiyaya uyğun davranmaq, müvafiq qurumları: yanğınsöndürən, təcili yardım və polisə çağırışlar edərək köməyə çağırmaq; məişətdə ehtiyatlı davranmaq) əməl edir. | | | | | | | | | | | | |

Qeyd: Uşaq inkişafının izlənilməsi ildə 3 dəfə: ilin əvvəlində, ortada və sonunda aparılır.

Hər yaş qrupunda hər bir inkişaf sahəsi üzrə belə cədvəllər tərtib edilir və ildə 3 dəfə: ilin əvvəlində, ortasında və sonunda olmaqla qeydlər aparılır. İnkişafa dair yekun hesabat məktəbəqədər yaş dövründə iki dəfə - 3 yaşın və məktəbəqədər təhsilin sonunda uşaq inkişafının qiymətləndirilməsi məqsədilə hazırlanır. Yekun hesabatda məktəbəqədər təhsilin sonunda uşağın inkişafının səviyyəsi müəyyən edilir. Uşaq bu hesabatla növbəti mərhələyə qədəm qoyur. Lakin uşaqların ümumi təhsil müəssisəsinə qəbulu zamanı onların inkişafına dair yekun hesabatın nəticələri əsas götürülmür.

**İnkişafa dair yekun hesabat (Nümunə)**

***Uşağın ad, soyadı və atasının adı*** ____________________

***Uşağın yaşı*** ____________________

***Məktəbəqədər təhsil müəssisəsi*** ____________________

***Tərbiyəçi-müəllimin soyadı və adı*** ____________________

Məktəbəqədər yaş dövründə Əlinin (ad şərtidir) həm fiziki, həm psixofizioloji inkişafı sürətlə gedir. Onun məktəbəqədər təhsil müəssisəsinə gəldiyi müddətdə boyunun, çəkisinin artmasında nəzərəçarpacaq dəyişiklik baş vermişdir. O diqqəti cəlb etməyi xoşlayır. Bununla yanaşı, onun nitqi, böyüklərlə və həmyaşıdları ilə ünsiyyəti yaşına uyğundur. Oyun oynayarkən uşaqlarla düzgün davranır, oyunda çox zaman keçirməyi, təqlid etməyi xoşlayır. Əşyalarla və quraşdırma oyunlarında qavrayışı, hafizəsi, təxəyyülü, təfəkkürü və hərəki qabiliyyəti yaxşı inkişaf etmişdir. Yoldaşları ilə əməkdaşlıq etməyi, oyuncaqlarını paylaşmağı xoşlayır. Digərlərinə qarşı mehribandır. Qrup otağında başqalarına kömək etməyi sevir. Kollektivdə davranış qaydalarına əməl edir. Fikrini ifadə edə bilir. Fiziki hərəkətləri düzgün icra edir. Həyatına və sağlamlığına təhlükə yarada biləcək hadisələrdən qorunma qaydalarını bilir. Eşitdiyi fikirləri şərh edir.

Təsviri, musiqi və konstruktiv fəaliyyətdə passivdir, bayram və əyləncələrin, səhnəciklərin göstərilməsində iştirak etmir. Məkan və zaman anlayışlarından düzgün istifadə etməkdə çətinlik çəkir. Diqqəti isə bir qədər dağınıqdır. Öz işi ilə məşğul olarkən yoldaşlarının gördüyü işlər onun diqqətini yayındırır.

Əli ilə məşğul olarkən məkan və zaman anlayışlarını fərqləndirmək, hərəkətlərinin ardıcıllığını göstərmək vacibdir. Onu yaradıcı fəaliyyətlərə cəlb etmək, diqqət konsentrasiyası tələb edən tapşırıqların icrasına yönəltmək lazımdır.

# TEZAURUS

***Məktəbəqədər təhsil*** - məktəbəqədər yaşlı uşaqların intellektual, fiziki və mənəvi inkişafına xidmət edən, ilkin bilik, bacarıq və vərdişlərin mənimsənilməsi prosesi və onun nəticəsi.

***Məktəbəqədər təhsil müəssisəsi*** - məktəbəqədər təhsilin dövlət standartlarına uyğun olaraq məktəbəqədər yaşlı uşaqların təlim-tərbiyəsini, əqli, fiziki, mənəvi inkişafını və ümumi təhsilə hazırlığını həyata keçirən təhsil müəssisəsi.

***Məktəbəqədər təhsilin dövlət standartı*** - uşaqların, ailənin, cəmiyyətin və dövlətin tələbatına uyğun olaraq, elmi-pedoqoji prinsiplər əsasında hazırlanan, məktəbəqədər təhsil sahəsində dövlət siyasətinin həyata keçirilməsinə xidmət edən ümumi normalar məcmusu.

***Məktəbəqədər təhsildə diferensiallaşdırma*** - təhsil prosesində uşaqların fərdi xüsusiyyətləri, maraq və tələbatları, fiziki və əqli inkişaf səviyyələri, psixofizioloji xüsusiyyətləri nəzərə alınmaqla təlimin təşkil olunması.

***Məktəbəqədər təhsildə qiymətləndirmə*** - uşaqların əqli, fiziki inkişafı və təhsil nailiyyətləri haqqında toplanmış məlumatların dəyərləndirilməsi prosesi.

***Məktəbəqədər təhsil proqramı (kurikulum)*** - təlim nəticələri və inkişaf sahələri üzrə məzmun standartlarını, pedaqoji prosesin təşkili, təlim nəticələrinin qiymətləndirilməsi və monitorinqinin aparılması sistemini özündə əks etdirən dövlət sənədi.

***Məktəbəqədər təlim*** - məktəbəqədər yaşlı uşaqlarda bilik, bacarıq, vərdiş və səriştələrin, mənimsənilmiş biliklərin gündəlik həyatda tətbiqetmə bacarığının əldə edilməsi və təhsil almaq üçün motivasiyanın formalaşdırılmasına yönəlmiş proses.

***Məzmun standartı*** - təhsilalanların bilik və bacarıq səviyyəsinə qoyulan dövlət tələbi.

***Motivasiya*** - məşğələnin vacib komponenti olmaqla, uşaqların idrak fəallığına təkan verən proses.

***Dəyərlər*** - şəxsiyyəti şərtləndirən keyfiyyətlər.

***Dəyərləndirmə*** - toplanmış məlumatların təhlili və nəticələrin çıxarılması prosesi.

***Əməkdaşlıq*** - “tərbiyəçi-müəllim və uşaq”, “uşaq-uşaq”, “valideyn və tərbiyəçi-müəllim”, “uşaq və valideyn” münasibətlərində qarşılıqlı fəaliyyətin təmin olunması.

***Fasilitasiya*** - qrupda diskussiyanın təşkili, fəallaşdırılması, səmərəli yönəltmə prosesi.

***Fasilitator*** - uşaq tərəfindən biliklərin əldə edilməsi prosesində bələdçi rolunu yerinə yetirən şəxs.
İnkişaf sahələri - uşaqların inkişaf sahələri üzrə ümumi təlim nəticələrinin reallaşmasını təmin etmək üçün müəyyən olunan məzmunun zəruri hissəsi.

***Nəticəyönümlülük*** - təhsilin məzmununun əvvəlcədən müəyyən olunmuş nəticələr əsasında müəyyən edilməsi.

***Portfolio*** - uşaq haqqında məlumatların və onun müəyyən müddət ərzində yerinə yetirdiyi işlərin toplandığı xüsusi qovluq.

***Resurslar*** - məzmun standartlarının reallaşdırılmasında istifadə olunan təlim vasitələri.

***Şəxsiyyətyönümlülük*** - uşaqlarda zəruri həyati bacarıqların və dəyərlərin formalaşdırılması.

***Şəxsiyyətyönümlü təlim prosesi*** - əsasında fərdiliyin tanınması, hər bir insanın orijinallığı, dəyəri, onun hər şeydən əvvəl şəxsiyyət kimi inkişafı, özünün təkrarolunmaz subyektiv təcrübəsi dayanan təlim.

***Təhsildə inteqrasiya*** - təlimin məzmun komponentlərinin əlaqələndirilməsini təmin edən didaktik prinsip.

***Təlimin məzmunu*** - uşaq şəxsiyyətinin formalaşmasına yönəlmiş bacarıqlar şəklində ifadə edilən təlim nəticələrinin məcmusu.

***Təlim nəticəsi*** - müəyyən bir mərhələdə mənimsənilməsi nəzərdə tutulan və əvvəlcədən müəyyənləşdirilmiş təlim nailiyyətlərinin konkret bir səviyyəsi.

***Təlim strategiyası*** - təhsil prosesində istifadə olunan forma, metod, üsul və vasitələrin məcmusu.

***Tərbiyəçi-müəllim*** - uşaqların tərbiyəsini, hərtərəfli inkişafını, məktəbəhazırlıq təlimini təşkil edən və həyata keçirən, məktəbəqədər təhsil sahəsi üzrə ali və ya orta ixtisas təhsilli şəxs.

***Uşaqyönümlülük*** –təlim-tərbiyə prosesinin bilavasitə uşağın meyil və marağının, təhsil tələbatının ödənilməsinə, istedad potensialının reallaşdırılmasına və inkişafına yönəldilməsi.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


***Azərbaycan dilində***

1. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu, 19.06.2009, № 833-IIIQ https://e-qanun.az/framework/18343
2. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası, 24.10.2013, №13 https://e-qanun.az/framework/29145
3. "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu, 14.04.2017, №585-VQ. https://e-qanun.az/framework/35791
4. "Azərbaycan Respublikasında məktəbəqədər təhsilin dövlət standartı", 8.08.2019, №351. https://e-qanun.az/framework/43192
5. Məktəbəqədər təhsil proqramı (kurikulumu) 11 aprel, 2022-ci il.
6. Məktəbəqədər təhsil müəssisələrində inteqrativ və inkişafetdirici təlim məsələləri. Azərbaycan Respublikasının Təhsil İnstitutu, Bakı, 2017.
7. Məktəbəqədər təhsilin yeni məzmunu və idarə olunmasi məsələləri, s. 248, Azərbaycan Respublikasının Təhsil İnstitutu, Bakı, 2016.
8. Cəfərova L.K. Müasir məktəbəqədər təhsilin məzmunu. "Kurikulum" jurnalı, № 3, s. 47-54, Bakı, 2014.
10. Əliyeva T.Ə. Uşaq inkişafının qiymətləndirilməsi. Elmin İnkişafı Fondu, 2015.

***İngilis dilində***

1. CURTAIN, H. [On-line] Foreign Language Learning: An Early Start.
2. http://www.penpages.psu.edu/penpages_reference/28507/285073032.HTML ( (July 2005).
3. Gail Gregory, Presenter.Make Your Day Conference Seattle, WA 2005
4. Creative curriculum. For infants, toddlers and twos.USA, vashington, 2010.p.-247
5. Creative Curriculum for Preschool, Diane Trister Dodge, Teaching Strategies, Washington DC, 2008.
6. State of Connecticut. Department of Education, 165 Capitol Avenue, Hartford, Connecticut 06106, (860) 713-6530.
7. K. Rudd and others, Labor's Plan for Early Childhood: Election 2007 Policy Document, Australian Labor Party, Canberra, 2007.
8. http://www.vanderbilt.edu/csefel/resources/states/iowa_pbsqpps_crosswalk.doc. rmchar@lsu.edu.
9. http://www.eddept.wa.edu.au/ November 2003. (modified) Department of Education and Training, Western Australia.
10. http://www.educastur.princast.es/cpr/oviedo/linguapro/en/rec_en.htm (July 2005).
11. LINGUA [On-line] Teacher Training and the Teaching of Foreign Languages in the Early Stages.
12. Developmentally Appropriate Practice in Early Childhood Programs Serving Children from Birth to Age 8, Copple, C., Bredekamp, S., NAEYC, Washington DC, 2002.

***Rus dilində***

1. Куррикулум по воспитанию детей раннего и дошкольного возраста (1-7 лет) Респ. Молдова, Ин-т педагогических наук. – Ch. : S. n., 2007 (Combinatul Polig.). – 108 стр.
2. Осокина П.И. Физическая культура в детском саду. М., Просвещение, 1973.
3. Селевко, Г.К. Современные образовательные технологии. М., 2004 г.
4. Тимофеева, Н.В., Зотова Ю.В. Занятие в детском саду. Волгоград, 2009.

***Türk dilində***

1. Okul Öncesi Eğitim Proqramı (36-72 aylık çocuklar için). Öğretmen Kılavuz Kitabı. Devlet Kitapları Müdürlüğü- Ankara 2006.
2. Okul Öncesi Eğitim Proqramı (36-72 aylık çocuklar için). Devlet Kitapları Müdürlüğü- Ankara 2006.
3. Okul Öncesi Eğitiminin İlke ve Yöntemleri. Ankara 2011.198 s.
4. İlköğretime Hazırlık ve İlköyretim Proqramları.Pegem Akademi, 2010.194 s.

5.  Çocuk gelişimi ve eğitimi. Erken çocukluk eğitiminde temel ilkeler. Ankara 2011.40 s.
13. http://www.megep.meb.gov.tr/mte_program_modul/moduller_pdf.
Okul öncesi eğitimi programı. Ankara 2013.114 s.  7.0-36 aylıq çocuklar için etkinlik kitabı. UNICEF-in teknik desteyi ile hazırlanmışdır. 80s.
http://tegm.meb.gov.tr/dosya/okuloncesi/0-36etkinlikkitabi.pdf.